

Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

BDU

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 iyun 2021-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


"Heydər Əliyev - müstəqil Azərbaycanın qurucusudur" mövzusunda elmi seminar keçirilib ➔Səh.7

BDU-da "Blackbord"un istifadəsinə növbəti tədris ilində başlanılacaq ➔Səh.7

Elmi Şuranın növbəti iclası keçirilib ➔Səh.9

BDU ilə ATGTİ əlaqələri genişləndirilir ➔Səh.9

PAŞA Bank ilə BDU arasında əməkdaşlığa dair memorandum imzalanıb ➔Səh.9

Təhsil Tələbə Krediti Fondu - Əsas məqamlar ➔Səh.11

5 iyun - Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günüdür ➔Səh.11

BDU-nun rektoru ICESCO-nun təşkil etdiyi beynəlxalq simpoziumda iştirak edib ➔Səh.13

“Bakı Universiteti” qəzeti - 92 ➔Səh.15






Müstəqilliyimizi əbədiləşdirən QURTULUŞ MİSSİYASI ➔Səh.4-5





BDU-da ADPU-nun 100 illik yubileyi qeyd edilib ➔Səh.8





Yaponiya səfiri Nippon Fondunun kitab hədiyyəsini BDU-ya təqdim edib ➔Səh.8





BDU-nun rektoru şəhid məzun Şamil Nəcəfovun diplomunu ailəsinə təqdim edib ➔Səh.10





BDU-nun əcnəbi tələbələri işğaldan azad olunmuş rayonlarda ➔Səh.12





## 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş konfrans keçirilib

***Bakı Dövlət Universitetində 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş onlayn konfrans keçirilib.***

Konfrans öz işinə başlamazdan əvvəl BDU-nun rektoru və bir qrup kollektiv Fəxri Xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib. Ulu Öndərin xatirəsini ehtiramla yad edərək, məzarı önünə çələng və tər gül dəstələri qoyublar.

Konfransı giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev 15 İyun - Milli Qurtuluş Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Rektor çıxışında bildirib ki, 1993-cü il iyunun 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Ümumilli Lider Heydər Əliyevin iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı səhifəsini təşkil edir. Ulu Öndər özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi ilə böhrana son qoydu, xalqımızı Azərbaycançılıq və azərbaycançılıq ideyaları ətrafında birləşdirdi. Qısa zamanda Ulu Öndər ölkədə siyasi sabitliyin yaradılmasına nail olub. Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi və siyasi uzaqgörənliyi nəticəsində müstəqilliyimizin və dövlətçiliyimizin əsası qoyulub, Azərbaycan güclü bir dövlətə çevrilib. Bu dövr ərzində ictimai-siyasi sabitlik təmin olunub, iqtisadi inkişafa geniş meydan açılıb, ölkəyə xarici sərmayələr cəlb edilib, dövlət idarəçiliyi mexanizmi yenidən yaradılıb. Nizami ordu qurulub, genişmiqyaslı siyasi, hüquqi, iqtisadi, sosial və mədəni islahatlar həyata keçirilib, ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edilib. Həmçinin, dövlətimiz dünya birliyində layiqli yerini tutub, bölgədə geosiyasi mövqelərini möhkəmləndirərək böyük beynəlxalq nüfuz qazanıb.

Elçin Babayev əlavə edib ki, 2003-cü ildən ölkəmizə uğurla rəhbərlik edən möhtərəm Prezidentimiz İlham Əliyev Ulu Öndər Heydər Əliyevin milli qurtuluş konsepsiyasını inamla həyata keçirdi, bununla da xalqımızın hərtərfli rifahına nail olundu. Ulu Öndərimizin bütün arzuları, planları və ən əsası özündə tarixi torpaqlarımızın azadlığını ehtiva edən müqəddəs ata vəsiyyəti Prezident İlham Əliyev tərəfindən əzmlə, fədakarlıqla yerinə yetirildi.

*Ardı səh. 4*





*BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "Son zəng" çalınıb*

# Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

***Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə qərara alıram:***

1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində "Təhsil Tələbə Krediti Fondu" (bundan sonra – Fond) yaradılsın.

2. "Təhsil Tələbə Krediti Fondunun Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki:

3.1. Fond təhsil tələbə kreditlərinin verilməsini təşkil edən qeyri-kommersiya hüquqi şəxsidir;

3.2. təhsil tələbə kreditinin məbləğinin yuxarı həddi hər tədris ili üçün təsdiq edilən tələbə qəbulunda nəzərdə tutulmuş ayrı-ayrı ixtisaslar üzrə ödənişli əsaslarla təhsilalana düşən illik təhsil haqlarının məbləğindən çox olmamalıdır;

3.3. Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün ictimai əsaslarla fəaliyyət göstərən 7 (yeddi) üzvdən ibarət Himayəçilik Şurası yaradılır;

3.4. Fondun fəaliyyətinə cari rəhbərliyi 3 (üç) üzvdən – sədr və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirir;

3.5. Fondun fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

4. Fondda təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Fondun nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. Fondun idarəetmə orqanlarının yaradılması;

4.1.3. Fondun yenidən təşkili və ləğvi barədə qərar qəbul edilməsi;

4.2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə:

4.2.1. bu Fərmanın 4.1-ci bəndi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına Fondun ilkin nizamnamə kapitalının formalaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. Fondun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi qaydasını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə olunsun ki, Fondun vəsaiti hesabına verilmiş kreditlər üzrə müvəkkil kredit təşkilatlarının aktivlərinin risk qrupunu müəyyən etsin.

7. Azərbaycan Respublikasının Təhsil Nazirliyi:

7.1. "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə "Təhsil Tələbə Krediti" altsisteminin yaradılmasını təmin etsin;

7.2. Fondun dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi gündən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

7.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, habelə ali, orta ixtisas və peşə təhsili müəssisələri Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin sorğularının Elektron Hökumət İnformasiya Sistemi üzərindən cavablandırılmasını təmin etmək üçün bir ay müddətində zəruri tədbirlər görsünlər.

9. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, bu Fərmanın 8-ci hissəsində nəzərdə tutulmuş dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərinin və ehtiyatlarının Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə inteqrasiyasını iki ay müddətində təmin etsin.

10. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Nizamnamənin 4.1-ci bəndində nəzərdə tutulmuş maliyyələşməni təmin etsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri,*
*17 iyun 2021-ci il*

# 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş konfrans keçirilib

(Əvvəli səh. 1)



Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri, professor Ziyafət Əsgərov çıxışında Ümummilli Lider Heydər Əliyevin uğurlu uzaqgörən siyasəti nəticəsində Azərbaycanın dünyanın inkişaf edən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətə çevrildiyini, yeni iqtisadi uğurlara imza atdığını vurğulayıb.

Milli Məclisin üzvləri Sevinc Fətəliyeva və Elşad Mirbəşiroğlu çıxışlarında böyük şəxsiyyətin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən bəhs ediblər. Müstəqilliyimizin və ərazi bütövlüyümüzün etibarlı qarantı olan bugünkü güclü Azərbaycan Ordusunun xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şah əsərlərindən biri olduğunu vurğulayıblar.




Çıxışlarda həmçinin qeyd olunub ki, Ulu Öndər zəngin dövlətçilik təcrübəsi, qətiyyətli və ardıcıl siyasəti ilə çox mürəkkəb şəraitdə ordu quruculuğuna yeni məzmun vermiş və ölkədə müasir ordunun formalaşdırılmasının əsasını qoymuşdur.

Daha sonra Rusiya Federasiyası Nijni-Novqorod Dövlət Texniki Universitetinin professoru, Beynəlxalq Elmlər Akademiyasının üzvü Yan Şvars "Rol Qeydara Alieva v razvitii Rossiysko - Azerbaydjanskix otnoşenii", Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun sədri, hüquq elmləri doktoru, professor Hikmət Cavadov "Azərbaycan-Ukrayna münasibətlərinin inkişafında Heydər Əliyevin rolu", BDU-nun Tarix fakültəsinin professoru İbrahim Zeynalov "Heydər Əliyev - Vətənin xilası, xalqın qurtuluşu", BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru, tarix elmləri doktoru Lətifə Əliyeva -"Heydər Əliyev - mükəmməl idarəçi və siyasətçi", BDU-nun Hüquq fakültəsinin tələbəsi Firavan Əlizadə "Heydər Əliyev gənclər siyasətinin banisidir" mövzusunda məruzə ilə çıxış ediblər.

# "Heydər Əliyev və Azərbaycanda təhsilin inkişafı"

## BDU-nun rektoru Elçin Babayev Yasamal rayonu İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbirdə iştirak edib

***Rektor Elçin Babayev iyunun 14-də keçirilən tədbirdə "Heydər Əliyev və Azərbaycanda təhsilin inkişafı" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə bütün həyatını xalqının xoşbəxt gələcəyinə həsr edən Ümummilli Lider Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin və çoxşaxəli fəaliyyətindən bəhs edib. Ulu Öndərimizin özünün siyasi müdrikliyi, zəngin dövlətçilik təcrübəsi, qətiyyəti və yorulmaz fəaliyyəti ilə o zaman respublikadakı xaos və anarxiyanın, vətəndaş qarşıdurması təhlükəsinin, getdikcə dərinləşən sosial-iqtisadi böhranın, kəskin tənəzzülün qarşısının alınmasını, dövlət müstəqilliyimizin bütün təhlükələrdən xilas olmasını və ildən-ilə güclənməsini, sarsılmazlığını təmin etdiyini vurğulayıb.***



E.Babayev qeyd edib ki, Ümummilli Liderin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də konkret və məqsədyönlü addımların atılması, təhsil siyasətinin etibarlı əsasının formalaşması təmin edilib. Ulu Öndər hələ respublikaya rəhbərliyinin birinci dövründə elmin, təhsilin inkişafına xüsusi diqqət yetirir, gələcəkdə müstəqil Azərbaycana bacarıqlı, peşəkar kadrların lazım olacağını prioritet hesab edirdi. Məhz dahi liderin böyük xidmətləri sayəsində respublikada ali təhsil müəssisələrinin sayı və onların qəbul planları artırılmış, tələbə qəbulunda şəffaflıq, ədalətlilik təmin olunmuşdur. Ulu Öndərin şəxsi nüfuzu və əlaqələri hesabına yüzlərlə azərbaycanlı gənc müvafiq ixtisaslara yiyələnməsi üçün keçmiş SSRİ-nin qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilmişdir. Azərbaycanlı gənclərin hərbi peşəyə yiyələnməsi, eyni zamanda gələcəkdə müstəqil Azərbaycan Ordusunu milli ruhlu, vətənpərvər zabit korpusu ilə təmin edilməsi məqsədilə Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılıb. "Təhsil millətin gələcəyidir" deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövründə - 1993-2003-cü illərdə də bu sahənin inkişafına xüsusi qayğı ilə yanaşmışdır. Bu illərdə Azərbaycanın təhsil sistemi təkmilləşdirilmiş və dünya təhsil sisteminə inteqrasiyası üçün geniş imkanlar yaradılmışdır.

*Ulu Öndər Heydər Əliyev məzunu olduğu, qürurla "Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" – kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, eyni zamanda, Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı adlandırdığı Bakı Dövlət Universitetinə də hər zaman qayğı ilə yanaşmışdır.* Ümummilli Liderin təhsil illəri və sonralar bu təhsil ocağı ilə sıx əlaqələri BDU-nun şanlı tarixinin bütöv bir mərhələsini təşkil edir.

Rektor Elçin Babayev vurğulayıb ki, bu gün Ümummilli Lider, dahi şəxsiyyət Heydər Əliyev siyasətinin bəhrəsidir ki, Azərbaycanda təhsil sahəsi ilə yanaşı, iqtisadiyyat, elm, mədəniyyət və digər sahələr də çox sürətlə inkişaf edir. Qürurvericidir ki, ölkəmiz öz inkişafına görə dünyanın qabaqcıl ölkələrindən birinə çevrilir. Müstəqil Azərbaycan dövlətinin banisinin axıra çatdırmaq istədiyi ən taleyüklü məsələ Qarabağ probleminin həlli, işğal altındakı torpaqlarımızın azad edilməsi idi. Müqəddəsata vəsiyyətini şərəflə yerinə yetirən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən Müharibəsində qazandığımız parlaq qələbə ilə xalqımızın başı dünya durduqca uca, Ulu Öndərin ruhu əbədi olaraq şad oldu.

# Vətənin xilaskar oğlu

***Müasir Azərbaycan tarixinin yarım əsrlik bir dövrü, o cümlədən Azərbaycanın dövlət müstəqilliyinin formalaşması, milli dövlət quruculuğu, respublikanın dinamik inkişafı və dünya inteqrasiya sisteminə qovuşması, respublikada hüquqi dövlət qurulması demokratik, sivilizasiyalı cəmiyyət yaradılması Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqının, tarixinin yetirdiyi ən qüdrətli şəxsiyyət, beynəlxalq səviyyəli böyük düha və dövlət xadimi, fenomen lider Heydər Əliyevin qeyd etdiyi kimi, "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanması, daimi, əbədi olması bundan da çətindir".***



SSRİ Dövlət Təhlükəsizlik orqanlarında sıravi leytenant rütbəsindən general rütbəsinə və Azərbaycan SSR DTK-nın sədri vəzifəsinədək yüksələn Heydər Əliyev dövrünün böyük şəxsiyyəti və dünya miqyaslı siyasətçi idi. Həm də "müsəlman və türk olasan! Şovinist əhval - ruhiyyəli SSRİ rəhbərliyinin yuxarı eşelonunda təmsil olunmaq, dünyada gedən proseslərə təsir göstərə biləcək işlərlə məşğul olmaq-bunlar yalnız Heydər Əliyevə nəsib olmuşdu". Ulu Öndər Heydər Əliyevin bu fərdi xüsusiyyətləri, qeyri-adi bacarığı, son dərəcə uzaqgörənliyi kimi keyfiyyətləri təkcə azərbaycanlılar deyil, bütün dünyanın görkəmli dövlət xadimləri, məşhurları etiraf edirdi.

1969-cu il 14 iyulda Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə gəldi. Onun 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə respublikanın sosial - iqtisadi böhran vəziyyətinin, uzun müddətli geriliyinin təhlili verildi, səbəbləri açıqlandı və çıxış yolları müəyyənləşdirildi. Həmin vaxtdan 1969-1970-ci illərdən Azərbaycanda tənəzzüldən tərəqqiyə dönüş başladı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda dirçəliş, inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqaydışa dönüş mərhələsinin başlanğıcı qoyuldu. 1969-1982-ci illərdə Azərbaycanın ictimai-siyasi, o cümlədən iqtisadi həyatında intibah başlandı.

Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə respublikanın iqtisadi inkişaf konsepsiyası hazırlanmış, iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında ixtisaslaşma, maddi-texniki və müasir istehsal sahələrinin yaradılması ilə bağlı kompleks tədbirlər hazırlanmış və həyata keçirilmişdir. Nəticədə, 1970-1980-ci illərdə Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə ittifaq respublikaları arasında daima öndə getmişdir.

Erməni şovinistləri, erməni lobbisi, SSRİ rəhbərliyində kök salmış "mikoyanlar", ermənipərəstlər Heydər Əliyevin - qüdrətli türk oğlunun SSRİ rəhbərliyindəki mövqeyinə, nüfuzuna dözə bilmirdilər. Bu mənfur cılız insanlar 1982-ci ildən Sovet İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək bir vəzifədə çalışan Heydər Əliyev şəxsiyyətinin qarşısında çox aciz görünürdülər, həm də Azərbaycan əleyhinə heç bir məkrli planlarını həyata keçirə bilmirdilər.

XX yüzilliyin 80-ci illərinin sonuna yaxın, artıq Sovetlər ölkəsini ictimai-siyasi və sosial-iqtisadi böhran bürümüşdü. Mixail Qorbaçovun "yenidənqurma", "aşkarlıq və demokratiya" siyasəti onsuz da tənəzzülə uğramaqda olan iqtisadiyyata ağır zərbə vurdu, SSRİ-nin dağılma prosesini daha da sürətləndirdi.

1990-cı ilin 20 yanvar hadisəsi göstərdi ki, suverenliyin yeganə yolu Sovet imperiyasından çıxmaq, dövlət müstəqilliyini bərpa etməkdir. Qanlı yanvar hadisəsi milli azadlıq hərəkatının yüksəlişinə səbəb oldu. Qanlı yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir, bu faciə həm də ləyaqətini, mənliyini qorumaq üçün hər cür qurban verməyə hazır olan Azərbaycan xalqının tarixində şərəfli bir səhifədir. Sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar yanvarın 21-də Ulu öndər Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlir və kəskin bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatları və icraçılarının cəzalandırılmasını tələb edir. ***Ulu öndər bu tarixi çıxışında bildirirdi: "Azərbaycanda baş verən hadisələrə gəlincə mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm... Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Belə ki, kobud siyasi səhv buraxmışlar".***

Ulu öndər Moskvanın antiazərbaycan siyasətinə, Dağlıq Qarabağ problemi ilə bağlı sovet rəhbərliyinin, şəxsən M.Qorbaçovun ikiüzlü siyasətinə etiraz olaraq, 1991-ci il iyulun 19-da Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi. Bununla, Heydər Əliyev Azərbaycan xalqını Kommunist partiyasının inzibati amirlik və totalitar idarəçiliyinə son qoymağa çağırdı, həmçinin Ulu öndər Azərbaycan Kommunist Partiyasından hakimiyyətdən əl çəkməyi, demokratik cəmiyyətin qurulması, siyasi plüralizmin təmin edilməsi üçün lazımı şərtlərin yaradılmasını tələb etdi.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ona qarşı qurula biləcək təxribatlardan qorunmaq üçün 1991-1993-cü illərdə Naxçıvanda yaşamış, 1991-ci ildə də Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. Ulu öndər 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini olmuşdur. Heydər Əliyev bu illərdə Naxçıvanda milli dövlətçilik ənənələrinin bərpa olunmasında ilk addımlar atıldı: 1991-ci il noyabrın 17-də Muxtar Respublikanın adından "Sovet sosialist" sözü götürüldü və Naxçıvan Muxtar Respublikası adlandırıldı; Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağı Muxtar Respublikanın dövlət bayrağı oldu. Heydər Əliyev 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilən təsis qurultayında partiyanın sədri seçildi.

1992-1993-cü ilin may-iyun aylarında iqtisadiyyatın bütün sahələrində tənəzzül dərinləşir, maliyyə-kredit sisteminin iflic vəziyyətə düşməsi, ölkə daxilində qeyri-sabit siyasi vəziyyətin, hakimiyyət uğrunda çəkişmələrin və hökumət böhranının son dərəcədə kəskinləşməsi ölkədə çox çətinliklə əldə edilmiş müstəqilliyin itirilməsi təhlükəsi yaratmışdı. Azərbaycan xalqı Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Bu, Azərbaycanda qurtuluş hərəkatının həlledici mərhələsi idi. Respublikanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev belə bir böhranlı vəziyyətdə xalqın təkidini yüksək qiymətləndirdi. Onların təkidli tələbi ilə 1993-cü il iyunun 15-də yenidən Azərbaycanda rəhbərliyə qayıtması, Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi, iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlaması və 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçilməsi respublikamızda dövlətçiliyin möhkəmləndirilməsinə ictimai-siyasi, iqtisadi vəziyyətin sabitləşməsinə, suveren gənc dövlətin iqtisadi əsaslarının yaradılmasına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə şərait yarandı. Bilavasitə az müddətdə xilaskar liderin rəhbərliyi ilə müstəqil Azərbaycanın dövlət quruculuğunun əsasları yaradıldı, müstəqilliyimizin əbədi qurulması üçün fundamental zəmin yaradıldı. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı. Cəbhədə atəşkəs əldə edildi. Daxili sabitlik təmin olunmağa başladı. Nəticədə Azərbaycan Respublikasına güclü investisiya axını təmin olundu. Həyata keçirilən tədbirlər nəticəsində 1996-cı ildə iqtisadiyyatda tənəzzül meyllərinin qarşısı alındı.

***1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və bu gün Azərbaycan xalqının milli tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqın tələbi ilə Milli məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi.***

1994 və 1995-ci illərdə Azərbaycanın dövlət müstəqilliyinə böyük təhlükə yarandı. Dövlət müstəqilliyinin əleyhinə olan respublika daxili qüvvələr xaricdəki havadarlarının köməyi ilə dövlət çevrilişinə cəhd göstərdilər. Lakin Ulu öndər Heydər Əliyevin qətiyyəti, iradəsi və xalqla birliyi qarşısında davam gətirə bilmədilər, onlar zərərsizləşdirildi və Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlanıldı, sonrakı illərdə isə daha da möhkəmləndirildi.

Bu dahi şəxsiyyətin hakimiyyətə qayıdışından sonra apardığı daxili siyasət ölkənin hər bir vətəndaşına azad, sərbəst yaşamaq, fəaliyyət göstərmək hüquqlarını təmin etmək və öz maddi-rifahını, sosial vəziyyətini yaxşılaşdırmaq imkanlarını yaratmaqdan ibarət olmuşdur. Ulu öndər Azərbaycanın rəhbərliyinə qayıdışından sonra onun fəaliyyətində sosial-iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, milli iqtisadi strukturunun yaradılması, iqtisadiyyatda dinamik inkişafın təmin olunması, Azərbaycanın dünyaya inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar, hüquqi və siyasi islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr təşkil etmişdir. Bununla da Heydər Əliyev Yeni Azərbaycanın qurucusuna çevrildi.

1995-ci ilin sonlarından Azərbaycan dövləti Ulu öndərin rəhbərliyi altında keyfiyyətcə yeni mərhələyə daxil oldu. Respublikanın sosial-iqtisadi, ictimai-siyasi həyatına yaxşı bələd olan Heydər Əliyev yeni Azərbaycanın qurucusu kimi yorulmaz fəaliyyətini davam etdirirdi.

***1993-2003-cü illərin nailiyyətləri, hadisələri göstərdi ki, Heydər Əliyev təcrübəli bir kapitan kimi Azərbaycan gəmisini tarix okeanının tufanlarından, qasırğalarından sağ-salamat keçirib, uğurla irəliyə - gələcəyə aparmağa qadir liderdir.***

1993-2003-cü illərin nailiyyətləri, hadisələri göstərdi ki, Heydər Əliyev təcrübəli bir kapitan kimi Azərbaycan gəmisini tarix okeanının tufanlarından, qasırğalarından sağ-salamat keçirib, uğurla irəliyə-gələcəyə aparmağa qadir liderdir. Beləliklə, "Azərbaycan xalqının milli lideri kimdir?" sualına Heydər Əliyev öz misilsiz, möhtəşəm fəaliyyəti ilə cavab verdi.

Ulu öndər bütün azərbaycanlıların lideri idi. O, həm də dünyanın böyük ictimai-siyasi xadimləri səviyyəsinə yüksəlmişdir.

2001-ci ilin yanvarında Azərbaycanın Avropa Şurasına və Avropa dövlətləri sırasına daxil olması, "Avropa evi"nin bərabər hüquqlu və etibarlı sakininə çevrilməsi Heydər Əliyevin xarici siyasət fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil edirdi.

Beləliklə, qeyd edə bilərik ki, ölkəmizin son 17-18 ildə əldə etdiyi möhtəşəm nailiyyətlərin əsası, yüksək sürətlə inkişaf edən iqtisadiyyatın, uğurlu xarici siyasətin, möhtəşəm ordu quruculuğunun təməlləri məhz 1993-2003-cü illərdə qoyulmuşdur.

2003-cü ildə Azərbaycan xalqı çox böyük ruh yüksəkliyi ilə Heydər Əliyev siyasətinə səs vermiş, İlham Əliyevə etimad göstərmişdir. Hazırda, Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi və digər sahələrdə əldə edilən misilsiz uğurları göstərir ki, Respublika Prezidenti İlham Əliyevin Ulu öndərin siyasətinə sadiqliyini möhkəm və daimidir, əbədidir. Faktlar göstərir ki, son 17-18 ildə Prezident İlham Əliyevin rəhbərliyi altında doğrudan da Azərbaycan nəhəng tarixi uğurlara imza atmışdır və bu siyasət bu gün də daha uğurla davam etdirilir.

Ulu öndər dönə-dönə bildirirdi ki, Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Son 17 ilin ən dəyərli uğuru 44 günlük Vətən müharibəsində xalqımızın tarixi, Şanlı Qələbəsidir. Bu qələbə xalqımızın qürur mənbəyidir. Çünki Azərbaycan qalib gəldi, Qarabağ Azərbaycana qaytarıldı, ədalət, Azərbaycanın ərazi bütövlüyü bərpa oldu. İndi çox böyük qürurla deyə bilirik ki, "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır".

***İbrahim Zeynalov,***
*Bakı Dövlət Universitetinin professoru*

*Sia.az*
*10 iyun 2021-ci il*

*Müasir Azərbaycanın bütün uğurları Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın tələbi ilə Azərbaycana rəhbərliyə gəldikdən sonra Heydər Əliyev ölkəni inkişaf etdirməyə başladı. Müharibə dayandırıldı, vətəndaş qarşıdurmasına son qoyuldu, qeyri-qanuni silahlı dəstələr tərksilah olundu, qayda-qanun yaradıldı.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Müstəqilliyimizi əbədiləşdirən




*Dünya tarixinə nəzər yetirdikdə xalqların, dövlətlərin taleyində həlledici rol oynayan, bu taleyi yönləndirən, istiqamətləndirən, sözün əsl mənasında, tarixin məcrasını, istiqamətini, gedişatını kökündən dəyişən, yeni reallıqlar və inkişaf qanunauyğunluqları yaradan əlamətdar təqvim günlərinin şahidi oluruq. Məhz həmin günlər xalqların taleyində tarixi nicat, milli qurtuluş günləri kimi təsbit edilir, yaşadılır, tarixin yaddaşına qızıl hərflərlə həkk olunaraq gələcək nəsillərə və əsrlərə ötürülür. Zaman-zaman həmin günlərin mahiyyəti, dövlətlərin və xalqların taleyindəki müstəsna əhəmiyyəti araşdırılır, tədqiq olunur və hər dəfə də yeni-yeni həqiqətlər üzə çıxarılır, liderlərin, fenomenal şəxsiyyətlərin fərqli situasiyalardakı misilsiz rolları bir daha aydınlaşır.*

Eyni zamanda, hər bir xalqın uzaq və yaxın keçmişində onun taleyinə həlledici təsir göstərmiş, ölkəsinin adını həm milli, həm də bəşər tarixinə şərəflə həkk etmiş, əsrlər boyu formalaşmış milli-mənəvi dəyərləri qorumaqla dövlətinin gələcəyini də uğurla müəyyənləşdirmiş dahilər çox deyil. Xoşbəxt o xalqdır ki, Vətənə sevgisi, xalqa ehtiramı, dövlətə sadiqliyi ilə hər bir kəsə örnək olan, zəkası, dühası və istedadı ilə dünyada tanınan, bütün ömrünü doğma xalqının xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr etmiş tarixi şəxsiyyətləri var. Ümummilli lider Heydər Əliyev məhz belə dahilərin sırasına yüksəlmiş Azərbaycan övladı olmuşdur.

Bəşər tarixində hər hansı bir vətəndaşın öz dövlətinin timsalına çevrilməsi nadir hadisədir. Yaxın tariximizdə belə zirvəyə yüksələn dahi şəxsiyyətlərdən biri də xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. Müasir Azərbaycanın dövlətçilik tarixi dedikdə, ilk olaraq, Azərbaycan xalqının öndəri, bütün həyatını Azərbaycan dövlətinin, xalqının inkişafına həsr etmiş unudulmaz rəhbərimiz Heydər Əliyevi xatırlayırıq.

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş ümummilli lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Ulu öndər fenomenal şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz xidmətlər göstərmişdir. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən dahi tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir.

Dünya səviyyəli siyasət və dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının tarixində nadir şəxsiyyətlərdəndir ki, onun zəngin irsi hər zaman politoloqların, filosofların, tarixçilərin və müxtəlif profilli tədqiqatçıların daim diqqət mərkəzində olacaqdır. O, Azərbaycan xalqının milli dövlətçilik mübarizəsindəki misilsiz xidmətləri ilə bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanmışdır. Ulu öndər çıxışlarının birində deyirdi: ***"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub".***

Ötən yüzillikdə cərəyan edən hadisələrin təhlili göstərir ki, respublikanın müstəqilliyə gedən yolu 1969-cu ildən başlayaraq ulu öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən məqsədyönlü siyasətlə tamamlanıb. Zaman və ictimai-iqtisadi formasiya baxımından kifayət qədər fərqli olan hər iki tarixi dövrün əsas ortaq cəhətləri isə ulu öndərin Azərbaycana böyük nailiyyətlər qazandıran fədakar xidməti, eləcə də, ölkənin inkişafında yeni impuls və tərəqqi meyillərinin geniş vüsət alması olub. Heydər Əliyevin hələ Sovet Azərbaycanına rəhbərliyi dövründə həyata keçirdiyi çoxşaxəli fəaliyyəti xalqımızda milli qürur, milli mənlik şüurunun formalaşmasına, azadlıq, müstəqillik duyğularının baş qaldırmasına gətirib çıxarmışdır.

***1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibi seçilməsi, ilk dəfə ölkəmizdə hakimiyyət sükanına doğma xalqının taleyinə tam sahib çıxmaq iqtidarında olan Vətən oğlunun yüksəlməsi ilə Azərbaycanın həyatında həlledici və şərəfli bir mərhələnin başlanğıcını qoydu.*** Ulu öndərin respublikaya böyük uzaqgörənliklə və müdrikcəsinə rəhbərlik etdiyi 1969–1982-ci illər Azərbaycanda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşdü.

Dərin zəkalı, yüksək enerjili lider olan Heydər Əliyev hakimiyyətə gələnə qədər sovetlər birliyinin geridə qalan respublikalarından sayılan Azərbaycan çox qısa bir müddətdə iqtisadi artım tempinə görə orta ittifaq səviyyəsini ötmüş oldu. 1969–1982-ci illərdə respublikada milli gəlir 2,6 dəfə, sənaye məhsulunun həcmi 2,7 dəfə, kənd təsərrüfatı istehsalı 2,3 dəfə artdı, 250-dək yeni iri sənaye müəssisəsi yaradıldı və ölkənin sənaye potensialı əvvəlki 50 ildəkini 2 dəfə üstələdi. Həmin illərdə 800 mindən çox yeni iş yerləri açıldı, ölkə əhalisinin sosial rifahı qat-qat yüksəldi.

*Həmin dövrdə respublikanın elmi-texniki potensialında da əhəmiyyətli yüksəliş yaşandı:* müxtəlif elm sahələri üzrə 265 elmlər doktoru, 3141 elmlər namizədi hazırlandı. Artıq ötən əsrin 80-ci illərinin əvvəlində ölkə xaricində ən nüfuzlu ali məktəblərə respublikamızdan göndərilən gənclərin sayı ildə 1000–1400 nəfər təşkil edirdi.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev hər zaman elm və təhsilə önəm vermiş, Azərbaycan elm və təhsili onun xüsusi diqqət və qayğısı ilə əhatə olunmuşdur. "Təhsil millətin gələcəyidir" deyən Heydər Əliyev BDU-nun məzunu olmağı ilə fəxr etdiyini dəfələrlə vurğulamışdır. Ulu öndərin universitetdə təhsil illəri, habelə sonralar bu elm və təhsil ocağı ilə sıx əlaqələri BDU-nun şanlı tarixinin bir mərhələsini təşkil edir. BDU-nun ən böyük məzunu Azərbaycan xalqının xilaskarı Heydər Əliyevdir.

Yurdsevər ölkə rəhbərinin böyük uğurla həyata keçirdiyi möhtəşəm fəaliyyət nəticəsində Azərbaycan, keçmiş ittifaqın öz daxili iqtisadi imkanlarına və intellektual potensialına arxalanaraq özünü tam şəkildə idarə etmək iqtidarında olan iki respublikasından birinə çevrildi.

Xalqların, dövlətlərin taleyinə həlledici təsir göstərən, onları məhv olmaq təhlükəsindən birdəfəlik xilas edən anları, günləri tarixin silinməz yaddaşına məhz Heydər Əliyev kimi fenomenal tarixi şəxsiyyətlər, liderlər, daha doğrusu isə ümummilli liderlər yazırlar. XX əsrin sonlarında milli dövlətçilik taleyimizdə, xalqımızın xilası və qurtuluşunda həmin missiyanı ağır, ziddiyyətli və mürəkkəb bir şəraitdə Ümummilli liderimiz Heydər Əliyev peşəkarlıqla, yüksək məharətlə, uzun illər ərzində əldə etdiyi dövlətçilik təcrübəsi, zəngin bilik və bacarığı ilə həyata keçirdi. Həmin dövrün spesifik xüsusiyyətlərini, dövlətçiliyimizin hər an məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığını göz önünə gətirəndə Azərbaycanın milli qurtuluş savaşının daha ağır mərhələlərdən keçdiyinin, ulu öndərimizin xilaskarlıq missiyasının isə heç bir dünya liderinin tarixdəki rolu ilə müqayisəedilməzliyinin bir daha şahidi oluruq.

Əslində, ulu öndər Heydər Əliyev hələ ötən əsrin 70-ci illərindən – Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən sovet hakimiyyətinin bütün təqib və təzyiqlərinə rəğmən dövlətimizin suverenliyinə, xalqımızın milli qurtuluşuna gedən yolun təməlini qoyur, şüurlarda, beyinlərdə həmin günlərin toxumlarını cücərdirdi.

1980-ci illərin sonlarında sovet imperiyasının süqutunun yaxınlaşdığını görən keçmiş SSRİ rəhbərləri Heydər Əliyevin Azərbaycanın gələcək taleyində oynayacağı həlledici rolu, həyata keçirəcəyi tarixi missiyanı da aydın şəkildə görür və dərk edirdilər. Həmin dövrdə Ulu öndər Heydər Əliyevə qarşı başladılan təqib və təzyiq kampaniyasının kökündə məhz bu qüdrətli lideri Azərbaycanda baş verən və baş verəcək hadisələrə təsir imkanlarından məhrum etmək, xalqımızı milli müstəqilliyə gedən yoldan, suverenlik uğrunda mübarizədən çəkindirmək, həmçinin tarixi torpaqlarımızın mənfur qonşumuz tərəfindən işğalına zəmin yaratmaq dayanırdı.

Təəssüf ki, 1990-cı illərin əvvəllərində, müstəqilliyimizin ilk illərində ulu öndərimizin siyasi hakimiyyətdə olmamasından fürsət kimi istifadə edilərək bu çirkin planın həyata keçirilməsinə başlanıldı. Əfsuslar olsun ki, Azərbaycanı bir dövlət kimi məhvə sürükləyən bu bədxah fəaliyyətə ölkə daxilindən rəvac verənlər də tapıldı. Amma bütün bunlar dünya siyasətinin fenomeni, müdrik şəxsiyyət Heydər Əliyevi tutduğu haqq yolundan, xalqa, dövlətə təmənnasız xidmət amalından döndərə bilmədi. Qədirbilən, müdrik Azərbaycan xalqı isə belə bir ağır şəraitdə onu bütün bəlalardan yalnız və yalnız Heydər Əliyevin xilas edəcəyini bir daha yəqinləşdirdi.

1990–1993-cü illərdə Azərbaycanda hakimiyyət uğrunda mübarizə amansız şəkil aldı, qısa müddət ərzində, ard-arda ölkənin sükanı arxasına səriştəsiz, bacarıqsız və ən təhlükəlisi isə xarici ölkələrin, müxtəlif güc mərkəzlərinin birbaşa təsir dairəsində olan şəxslər keçdi. Məhz onların xəyanəti və yarıtmaz idarəçiliyi nəticəsində ölkədə miqyası heç bir ölçüyə sığmayan xaos, özbaşınalıq mühiti yarandı. Əhalinin rifahı günü-gündən ağırlaşaraq dünyanın ən geridə qalmış ölkələrinin səviyyəsinə düşdü. Ən acınacaqlısı isə budur ki, bütün bunlardan fürsət kimi istifadə edən mənfur qonşumuzun təcavüzü nəticəsində Qarabağ və ətraf rayonlarımız işğal altına düşdü. 20 mindən artıq soydaşımız elan olunmamış müharibədə həyatını itirdi, 1 milyondan çox azərbaycanlı dədə-baba yurdlarından didərgin salındı.

1993-cü ilin iyun ayında xarici güclərin təsiri və daxili xəyanətkarların müti siyasəti nəticəsində ölkədə siyasi situasiya idarəolunmaz həddə çatdı. Həmin məşum günlərdə artıq Azərbaycan bir dövlət kimi məhv olmaq ərəfəsindəydi. Bu ağır, məşəqqətli günlərdə xalqımızın bütün nəzərləri və ümidləri xilaskarlıq missiyasını yerinə yetirəcək yeganə tarixi şəxsiyyətə – Ulu öndər Heydər Əliyevə yönəlmişdi. 1993-cü ilin mürəkkəb, ziddiyyətli və ağır iyun günlərində xalqın çağırışına səs verən ümummilli lider Heydər Əliyev yenidən Azərbaycanda siyasi hakimiyyətə gəldi. Bununla da ölkəmizin həyatında yeni – sabitliyə, dirçəlişə, inkişafa, intibaha gedən yolun, tarixi bir mərhələnin əsası qoyuldu.

Moskvada tutduğu bütün vəzifələrdən istefa verəndən sonra Naxçıvana dönən və blokadada olan muxtar respublikanı işğal təhlükəsindən, sosial çətinliklərdən xilas edən Ulu öndər Heydər Əliyev bu dəfə bütün Azərbaycanın xilaskarı missiyasını üzərinə götürdü. Bu, olduqca çətin, məsuliyyətli, taleyüklü bir qərar idi. Amma bu tarixi qərarın gücü, qüdrəti, əhəmiyyəti onda idi ki, həmin qərarı məhz dünya siyasətinin fenomeni Heydər Əliyev qəbul etmişdi.

***Xalqın çağırışı ilə Bakıya dönən böyük rəhbər Heydər Əliyev 15 iyun 1993-cü ildə hamılıqla Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.*** Həmin tarixi iclasda etdiyi çıxışında ümummilli lider Heydər Əliyev dövlətimizin inkişaf strategiyasını müəyyənləşdirdi, bir xalq olaraq hədəflərimizi, gedəcəyimiz yolu inamla bəyan etdi. Bu tarixi hadisə xalqımızın öləzimiş inamını özünə qaytardı. Qədirbilən və müdrik xalqımız hələ rəsmən elan edilməmiş, haqlı olaraq, həmin tarixi məhz "Qurtuluş günü" adlandırmağa başladı. 1997-ci ildə Milli Məclis xalqın bu arzusunu, ülvi niyyətini gerçəkləşdirdi. 15 iyun tarixi Azərbaycanda Milli Qurtuluş Günü kimi təqvimə daxil edildi. Ötən dövr ərzində tarix dəfələrlə sübut etdi ki, xalqın arzusu ilə Milli Məclisin qəbul etdiyi bu qərar müdrik və uzaqgörən bir addım olmuşdur.

# qurtuluş missiyası




***Ümummilli lider Heydər Əliyevin ikinci dəfə, ölkəmiz üçün həlledici bir məqamda hakimiyyətə gəlişi Azərbaycanın müasir tarixinin şərəfli səhifələrinin yazılmasına və dövlətimizin müstəqilliyinin əbədiliyinə hərtərəfli zəmin yaratmış oldu. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlər möhtəşəm quruculuq və tərəqqi, davamlı və hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır.***

Müstəqillik illərində Ulu öndər ölkəmizin inkişaf strategiyasını müəyyən etdi, rifahın, tərəqqinin Azərbaycan modelini yaratdı, müstəqil Azərbaycan xarici siyasətdə etibarlı tərəfdaşlıq və sabitlik mərkəzi kimi çıxış edən, iqtisadi və sosial rifah yolunda qətiyyətli addımlarla irəliləyən, Dövlət–vətəndaş birliyinin təşəkkül tapdığı bir ölkəyə çevrildi.

1993–2003-cü illəri əhatə edən ikinci hakimiyyət dövrü ulu öndərin dünyanın ən nadir şəxsiyyətlərindən, görkəmli siyasi xadimlərindən biri olduğunu növbəti dəfə nümayiş etdirdi. Heydər Əliyevin siyasi müdrikliyi, iradəsi və qətiyyəti, mükəmməl idarəçilik qabiliyyəti sayəsində dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan keçid dövrünün çətinliklərini uğurla arxada qoyub, 1996-cı ildən etibarən yenidən dirçəliş mərhələsinə daxil oldu. 1996–2003-cü illərdə makroiqtisadi göstəricilər 2–3 dəfə artdı və ölkədə 3 min yeni sənaye müəssisəsi yaradıldı. Bu dövrdə iqtisadiyyatına 20 milyard dollar investisiya qoyulan Azərbaycanda ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş vüsət aldı və respublikamızın beynəlxalq nüfuzu durmadan yüksəlməyə başladı.

Balanslaşdırılmış və milli mənafeyə əsaslanan dövlət siyasəti, ictimai-siyasi sabitliyin dayanıqlılığı, iqtisadi qüdrət və güclü sənaye potensialı, elmi-texniki tərəqqi, təhsil və səhiyyənin inkişafı, müasir ordu quruculuğu, xalqın rifahının və həyat tərzinin durmadan yaxşılaşdırılması, milli irsin qorunması və milli-mənəvi dəyərlərin möhkəmləndirilməsi ümummilli liderin başlıca strateji hədəflərinə çevrildi. Heydər Əliyevin Azərbaycana və regiona sülh, sabitlik və davamlı inkişaf gətirmək yolunda atdığı qətiyyətli addımlar onun beynəlxalq səviyyədə siyasi və ictimai xadim kimi birmənalı şəkildə qəbul edilməsini şərtləndirən həlledici amillər oldu.

Ulu öndər Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil bir dövlət qurmaq idi. Tarixə müasir Azərbaycanın memarı olaraq düşən ümummilli lider Heydər Əliyev hər zaman Azərbaycanı özünə güvənən qüdrətli bir ölkəyə çevirmək istəyirdi. Bu yolda qəti addımlar atır, əməli işlər görür, özünün iqtisadi inkişaf yolunda olan Azərbaycanın etibarlı, sağlam gələcəyini qururdu.

Azərbaycanın inkişafında qazandığı uğur və nailiyyətlərin davamlı olmasını təmin etmək üçün böyük rəhbər misilsiz fədakarlıq göstərib. Bunun ən bariz nümunələrindən biri də ulu öndərin özündən sonra ölkəmizə layiqincə rəhbərlik edərək qazanılan uğurların davamlılığını təmin edəcək, xalqın alternativsiz liderinə çevriləcək davamçı-varis yetişdirməsindədir.

Artıq Azərbaycan xalqı əldə etdiyi müstəqilliyin təminatçısı kimi ulu öndərin xilaskarlıq missiyasının əhval-ruhiyyəsi ilə özünün xoş gələcəyinə inanır, dövlətimizin hərtərəfli tərəqqisinə şahidlik edirdi. Ulu öndərin yenidən siyasi hakimiyyətə gəlməsi ilə Azərbaycan, sözün əsl mənasında, bütün bəlalardan qurtuldu. Ölkəni bürüyən və xaricdən idarə olunan vətəndaş müharibəsinə, dövlət çevrilişləri cəhdlərinə, birmənalı olaraq, son qoyuldu. Dövlətimizin parçalanma təhlükəsi aradan qaldırıldı, tədricən əmin-amanlıq bərpa olundu. Bütün bunların sayəsində isə ölkəyə böyük həcmdə sərmayələr cəlb edildi. Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən dost və tərəfdaş ölkələrin sayı gündən-günə artdı.

***Ulu öndərin böyük səriştə ilə ərsəyə gətirdiyi "Əsrin müqaviləsi" ölkənin inkişafında, əhalinin rifahının kökündən dəyişməsində həlledici rol oynadı. Ayrı-ayrı şəxslərə tabe olan silahlı dəstələr vahid komandanlıq altında birləşdirildi, cəbhədə ilk uğurlar əldə edildi.*** Bütün bunların fonunda isə işğalçı Ermənistan atəşkəs sazişini imzalamağa məcbur oldu. Dövlətimizin siyasi qüdrətinin, iqtisadi potensialının güclənməsi Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan siyasi danışıqları birmənalı olaraq Azərbaycanın xeyinə dəyişdi.

Ulu öndərimizin Azərbaycana rəhbərlik etdiyi 1993–2003-cü illər tariximizə dövlət quruculuğu dövrü kimi düşdü. Məhz həmin illərdə Azərbaycanda müstəqil və müasir dövlət idarəçiliyi formalaşdırıldı, siyasi idarəçiliyin əsasları yaradıldı. Müstəqil Azərbaycan Respublikası postsovet ölkələri ilə müqayisədə keçid dövrünü daha sürətlə aşdı, dayanıqlı və davamlı rifah yoluna qədəm qoydu. Xalqımızı bəlalardan, dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas edən ulu öndərimiz məqsədli şəkildə bölgələrə, regionlara parçalanmaq təhlükəsi ilə üz-üzə qoyulan, siyasi, milli zəmində süni yolla yaradılmış çəkişmələrə, münaqişələrə cəlb edilən ölkəmizi qısa müddət ərzində multikultural dəyərlərin hakim olduğu, bu sahədə bütün dünyaya örnək ola biləcək demokratik bir dövlətə çevirdi. Azərbaycanın etibarlı tərəfdaş kimi imici dünya miqyasında artmağa başladı, ölkəmiz regionda söz sahibinə, güc mərkəzinə çevrildi.

***2003-cü ildən ölkəmizə uğurla rəhbərlik edən, ulu öndərimiz Heydər Əliyevin siyasi varisi möhtərəm Prezidentimiz İlham Əliyev ümummilli liderimizin dövlətimizin təməl sütununa, ali dəyərinə çevrilən, Azərbaycançılıq ideologiyasına əsaslanan milli Yüksəliş doktrinasını inamla həyata keçirdi.*** Möhtərəm Prezidentimiz İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə gənc və müstəqil ölkəmiz iqtisadi potensialına, əhalinin rifahının dinamik inkişafına, insan hüquq və azadlıqlarının təmin olunmasına, demokratik təsisatların, vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması tempinə görə uzunmüddətli müstəqillik tarixi və demokratiya təcrübəsi olan ölkələrin səviyyəsinə yüksəldi.

Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə milli ruhlu, vətənpərvər gənclik yetişdi. Ötən ilin payızında Qarabağ uğrunda Vətən müharibəsindəki Zəfərimizin ən parlaq səhifələrini də məhz həmin gənclər yazdılar. ***Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"sözlərində ifadə olunmuş tarixi etimadının əsaslı olduğunu özünün parlaq fəaliyyəti ilə təsdiqlədi.*** Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev ulu öndərimizin bütün arzularını, planlarını, ən əsası özündə tarixi torpaqlarımızın azadlığını ehtiva edən müqəddəs ata vəsiyyətini şərəflə, əzmlə, müdrik, qədirbilən xalqından güc alaraq yerinə yetirdi.

Bu gün ümummilli liderin ideyaları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gərgin əməyi və fəaliyyəti nəticəsində yaşayır və uğurla inkişaf edir. Əminliklə demək olar ki, dövlət başçısının apardığı həm xarici, həm də daxili siyasət Heydər Əliyev kursunun davamıdır. Xalqımız əmindir ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən yaradılan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir.

2003-cü ildən bəri müstəqil dövlətimizin qurucusu və xalqımızın xilaskarı, dahi şəxsiyyət Heydər Əliyev cismən yanımızda olmasa da, onun ideyaları və böyük dühası əbədiyaşardır. Ulu öndərimizin layiqli davamçısı Prezident İlham Əliyev həm ata vəsiyyətini yerinə yetirən övlad, həm də onun memarı olduğu dövlətin rəhbəri, qurduğu qüdrətli ordunun Ali Baş Komandanı kimi Heydər Əliyev ucalığının parlaq təcəssümüdür.

Ulu öndərimiz Heydər Əliyev həsəd aparılacaq zəngin, mənalı və şərəfli ömür yaşamışdır. Qısa zaman kəsiyində xalqımızın uzun əsrlər boyu uğrunda usanmadan çarpışdığı ən ümdə haqqını reallığa çevirmişdir: Azərbaycanı hər bir dövlət və millət üçün ən yüksək məqama – müstəqilliyə qovuşdurmuş, dövlətimizin dünya birliyində layiqli yerini bütün bəşəriyyətə nümayiş etdirmişdir.

***Xalqımızın görkəmli oğlu Heydər Əliyevin irsi olduqca zəngindir. Öz həyat və fəaliyyəti ilə ölməzlik zirvəsinə yüksələn Heydər Əliyevin keçdiyi ömür yolu bizim üçün zəngin həyat məktəbidir. Çünki o böyük insanın ömür yolu Azərbaycan tarixinin şərəfli bir hissəsidir. Biz o tarixi öyrənməli və bizdən sonra gələn nəsillərə çatdırmalıyıq.***

Əminik ki, bu gün daim azərbaycanlı olması ilə fəxr edən Heydər Əliyevin ruhu şaddır–xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü onun ideya və əməllərini davam etdirən, yarımçıq qalmış arzuları ilə bağlı vəsiyyətlərini gerçəkləşdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bərpa edilmiş, 30 ildən bəri düşmən nəzarətində olan Qarabağ əbədi azadlığına qovuşmuşdur. Heydər Əliyevin böyük siyasəti qalib gəlməklə onun ölməzliyini bir daha təsdiqləmişdir.

Xalqımız 1993-cü ilin 15 iyunundan hafizəsində müstəsna yer tutan, taleyində əvəzsiz rol oynayan Milli Qurtuluş Gününü 2021-ci ildə daha yüksək əhval-ruhiyyə və coşqu ilə qarşılayır. Əgər 1993-cü ildə xalqımızın xilaskarı, ulu öndərimiz Heydər Əliyevin sayəsində Azərbaycan xaosdan, özbaşınalıqdan, vətəndaş müharibəsindən, nəzarətimizdə olan digər ərazilərin də işğal atına düşməsindən və beləliklə də, bütün bunların fonunda dövlətçiliyimiz məhv olmaq təhlükəsindən qurtulmuşdusa, 2020-ci ilin 27 sentyabrından Ali Baş Komandanımız, yenilməz sərkərdəmiz İlham Əliyevin rəhbərliyi ilə düşmənin növbəti təxribatlarına cavab kimi başlayan, 44 gün davam edən və möhtəşəm zəfərlə, tarixi qələbə ilə başa çatan Vətən müharibəsi ilə işğal altında olan torpaqlarımız əsarətdən qurtuldu.

Bununla da ulu öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda başlatdığı Milli Qurtuluş savaşımız 10 noyabr 2020-ci ildə onun müəyyənləşdirdiyi siyasi xətlə müdrik rəhbərimizin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin məqsədyönlü, ardıcıl, qətiyyətli siyasəti, peşəkar diplomatik gedişləri və mahir sərkərdəlik məharəti sayəsində öz məntiqi sonluğuna çatdı. Müstəqil, qüdrətli, ərazi bütövlüyünü təmin etmiş Azərbaycanın həyatında yeni səhifələr açıldı. Bu səhifələr özündə qurtuluşdan quruculuğa gedən anları, günləri, illəri parlaq şəkildə əks etdirir. Xoşbəxt xalqıq ki, bu səhifələr də məhz ulu öndərimizin müəyyənləşdirdiyi konsepsiya ilə müdrik rəhbərimizin layiqli davamçısı cənab Prezidentimiz İlham Əliyev tərəfindən yazılır.

2021-ci ilin may ayında mədəniyyətimizin, incəsənətimizin, ədəbiyyatımızın, muğam sənətimizin beşiyi, qeyrətimizin, milli kimliyimizin simvolu olan Şuşada Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə keçirilən "Xarıbülbül" musiqi festivalında bütün dünya bir daha dövlətimizin gücünün, xalqımızın müdrikliyinin, dövlət başçımızın əzminin, yenilməz iradəsinin və bütün bunların fonunda isə Azərbaycanın, sözün əsl mənasında, ən böyük bəladan qurtulduğunun şahidi oldu. Əminliklə söyləyirik ki, bundan sonra Azərbaycanı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə daha böyük tərəqqi, davamlı inkişaf və daha xoşbəxt günlər gözləyir!

***Elçin Babayev,***
*Bakı Dövlət Universitetinin rektoru*

*"Xalq qəzeti", 16 iyun 2021-ci il*

# “Şanlı ordumuz - qürurumuzdur”



***İyunun 25-də BDU-da 26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününə həsr olunmuş “Şanlı ordumuz - qürurumuzdur” adlı onlayn dəyirmi masa keçirilib.***

Tədbiri giriş sözü ilə açan rektor Elçin Babayev çıxışında rəşadətli Azərbaycan Ordusunun yaranması və keçdiyi şərəfli inkişaf yolundan bəhs edib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanına əsasən 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan olunub. Azərbaycanda güclü, qüdrətli və yüksək döyüş hazırlığına malik ordu yaradılması Ümummilli Liderimizin adı ilə bağlıdır. Məhz onun sayəsində ordu quruculuğu sahəsində genişmiqyaslı islahatlar həyata keçirilmiş, peşəkar, yüksək səviyyəli nizami ordu formalaşdırılmışdır.

E.Babayev qeyd edib ki, bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz uzaqgörən rəhbərin gərgin zəhmətinin bəhrəsidir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası möhkəmləndirilib, Azərbaycan Ordusu regionun ən qüdrətli ordusuna çevrilib. 44 günlük Vətən Müharibəsindəki parlaq qələbə Milli Ordumuzun gücünün və qüdrətinin göstəricisidir. Rektor bu il 26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününün fərqli ovqatda - qalib ölkənin qalib vətəndaşları olaraq qeyd etdiyimizi söyləyib. O, əminliklə bildirib ki, növbəti illərdə də bu bayram ölkəmizin daha böyük uğurları ilə qeyd olunacaq.

Milli Məclisin üzvü, YAŞAT Fondunun Himayəçilik Şurasının üzvü BDU-nun professoru Anar İsgəndərov Azərbaycan ordusunun yaranması və keçdiyi şərəfli tarix haqqında geniş məruzə ilə çıxış edib.

Daha sonra DTX-nin Heydər Əliyev adına Akademiyası rəisinin birinci müavini Elşad Nəsirov, Qarabağ qazisi, YAŞAT Fondunun əməkdaşı Elşad Haşımov, BDU-nun Beynəlxalq münasibətlər kafedrasının müəllimi Fərhad Aydınlı mövzu ilə bağlı çıxış ediblər. Çıxışlarda Milli Ordunun yaranma tarixi, Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində göstərdiyi xidmətlər, 2016-cı il "Aprel döyüşləri"ndə, Vətən Müharibəsində Milli Ordumuzun göstərdiyi şücaət, ölkənin silahlı qüvvələrinin döyüş qabiliyyəti, texniki təchizatı, zabit kadrlarının hazırlıq səviyyəsi haqqında bəhs olunub.

Vətən Müharibəsi iştirakçıları - BDU-nun Filologiya fakültəsinin 2019-cu il məzunu Elnur Soltanov, BDU-nun Tarix fakültəsinin 2017-ci il məzunu, ehtiyatda olan hərbçi Xəyal Zeynalov döyüş əməliyyatlarından, əsgərlərimizin şərəfli döyüş yolundan söz açıblar, müharibə ilə bağlı xatirələrini bölüşüblər.

# 26 iyun - Silahlı Qüvvələr Gününə həsr edilmiş silsilə tədbirlər keçirilib

***İyunun 24-də Kitabxanaçılıq-informasiya fakültəsinin təşkilatçılığı ilə 26 İyun - Silahlı Qüvvələr Gününə həsr edilmiş onlayn tədbir keçirilib. Professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə keçirilən tədbirdə öncə Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Vətən Müharibəsində qazandığımız şanlı qələbəyə həsr olunmuş videoçarx nümayiş etdirilib.***

Giriş sözü ilə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov tədbir iştirakçılarını salamlayıb, 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbriklərini çatdırıb. Ramin Səmədov vurğulayıb ki, quruluşunun 103-cü ildönümündə Silahlı Qüvvələr Gününü 44 günlük Vətən Müharibəsində parlaq qələbə qazanan Müzəffər Azərbaycan Ordusunun bayramı kimi qeyd edirik. O, bildirib ki, illər ötdükcə bu qələbənin şərəfinə dastanlar, romanlar, tarixi əsərlər yazılacaq, uzun əsrlər bu şanlı zəfərdən bəhs olunacaqdır.

Sonra Hərbi Jurnalistlər Birliyinin sədri Tamxil Ziyəddinoğlu və tarixçi alim, BDU-nun dosenti Ələmdar Şahverdiyev 26 İyun - Silahlı Qüvvələr Gününə həsr edilmiş məruzələrlə çıxış ediblər. Məruzələrdə Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixi, formalaşma və inkişaf dövrü barədə ətraflı məlumatlar verilib. Xüsusi vurgulanıb ki, ölkəmizdə peşəkar ordu quruculuğunun əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərimizin davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin məqsədyönlü, ardıcıl siyasəti nəticəsində isə Azərbaycan ordusu bu gün regionun ən qüdrətli, dünyanın ən peşəkar ordularından birinə çevrilib. 44 günlük Vətən Müharibəsində Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin tarixi zəfərə imza atmasının, ərazi bütövlüyümüzün təmin edilməsinin xalqımızda böyük ruh yüksəkliyi və qürur hissi yaratdığı qeyd olunub.

26 İyun- Silahlı Qüvvələr Gününə həsr edilmiş mərasim tələbələr tərəfindən hazırlanmış bədii hissə ilə başa çatıb.

***

***İyunun 30-da Kimya fakültəsində Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə 26 iyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə tədbir keçirilib.***

Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov, Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının müdiri professor Rasim Alosmanov çıxış edərək Azərbaycan Ordusunun yaranma tarixindən, Ümummilli Lider Heydər Əliyevin ordunun formalaşmasında və gücləndirilməsində xidmətlərindən danışıb, Ulu Öndərin ordu quruculuğu sahəsindəki siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıblar.

***

***İyunun 24-də Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunda 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününə həsr olunmuş onlayn tədbir keçirilib.***

İnstitutun direktoru Sədiyar Rəhimov və İnstitutun direktor müavini Namiq Dərvişov tədbirdə çıxış edərək Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik irsini şərəflə davam etdirən ordumuzun Ali Baş Komandanı, Prezident İlham Əliyevin ordu quruculuğunda göstərdiyi böyük diqqətin nəticəsi olaraq, Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən bəhs edib. 44 günlük Vətən Müharibəsində rəşadətli Azərbaycan ordusu tərəfindən torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün bərpa edilməsi münasibəti ilə bağlı nitq söylənib. Bu ilki Silahlı Qüvvələr Gününə həsr olunmuş tədbirin çox yüksək əhval-ruhiyyə ilə qeyd edilməsini bildiriblər.

Daha sonra İnstitutun aparıcı elmi işçiləri Gülşən Ağayeva, İzzət Əfəndiyeva, Gülnarə Haqverdiyeva, Ləman Abdullayeva çıxış edərək bayram münasibəti ilə kollektivi təbrik ediblər.

***

***İyulun 1-də Mexanika-riyaziyyat və Geologiya fakültələrinin tələbə gənclər təşkilatlarının təşkilatçılığı ilə 26 İyun - Silahlı Qüvvələr Gününə həsr olunmuş "Silahlı qüvvələrimiz güvənc yerimiz, qürur mənbəyimizdir" adlı onlayn tədbir keçirilib.***

Tədbirdə çıxış edən Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov bildirib ki, 103 il öncə 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə - əlahiddə Azərbaycan korpusu yaradılıb. O, Silahlı Qüvvələrimizin formalaşmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edib.



Daha sonra çıxış edən Geologiya fakültəsinin dekan müavini Ruslan Şəmiyev Silahlı Qüvvələrin yaranma tarixi, 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm qələbə barəsində danışıb.

Mexanika-riyaziyyat fakültəsi TGT sədr müavini Sevinc Pənahova və fakültə TGT İdarə Heyətinin üzvü Ayan Cəfərova çıxışlarında bildiriblər ki, bu bayramı məğlubedilməz orduya malik qalib xalq və qalib dövlət kimi qarşılamaq hər bir azərbaycanlıda böyük qürur və fəxarət hissi doğurur.

***

***İyunun 24-də Elmi Kitabxanasında 26 İyun - Silahlı Qüvvələr Gününə həsr olunmuş sərgi təşkil olunub.***

Sərgidə Azərbaycan və xarici dillərdə nəşr olunmuş Azərbaycanın ordu quruculuğunu, hərb tariximizi əks etdirən kitablar və dövri mətbuat materialları nümayiş olunur. Sərgidə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda 27 sentyabr - 10 noyabr 2020-ci il tarixlərində 44 gün davam edən Vətən Müharibəsi zamanı müzəffər Azərbaycan ordusunun keçdiyi şərəfli yoldan, Ümummilli Lider Heydər Əliyevin ölkədə hərbi quruculuq sahəsində gördüyü işlər, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan ordusunu zəfərə aparan “dəmir yumruq” siyasətindən bəhs edən yeni nəşrlər xüsusilə təqdim edilib.



Sərgidə 100-ə yaxın ədəbiyyat nümayiş etdirilir.

## “Blackbord”un istifadəsinə növbəti tədris ilində başlanılacaq

***“Blackboard” təhsil prosesinin idarə edilməsi sistemidir. Bu sistemdə müəllimlər və tələbələr arasındakı bütün münasibətlər “Blackboard” vasitəsilə idarə olunacaq. Bununla da artıq dərslərin aparılması, tələbələrin dərs materialları ilə təmin olunması, qiymətləndirilmə və bir çox proseslər avtomatlaşacaq.***

***Bakı Dövlət Universiteti Amerika Birləşmiş Ştatlarının təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində dünya lideri olan “Blackboard” şirkəti ilə əməkdaşlıq edir. “Blackboard” - tədrisin idarəedilməsi proqramının istifadəsi BDU-da “Blackboard EdTech” ekosisteminə daxil olan “bulud platforması” vasitəsilə ilə tələbələrin və müəllimlərin elektron məlumat bazasının yaradılması, tədris prosesinin və təhsilin məzmununun elektron idarə olunması, elektron qiymətləndirmə və digər tədris proseslərinin elektronlaşdırılmış həllinə imkan yaradacaq.***

“Blackboard” təhsil prosesinin idarə edilməsi sistemidir. Bu sistemdə müəllimlər və tələbələr arasındakı bütün münasibətlər “Blackboard” vasitəsilə idarə olunacaq. Bununla da artıq dərslərin aparılması, tələbələrin dərs materialları ilə təmin olunması, qiymətləndirilmə və bir çox proseslər avtomatlaşacaq. Sistem həmçinin tələbələrin qiymətini avtomatik olaraq hesablaya biləcək. Eyni zamanda tələbələr bütün təhsil prosesini vizual olaraq izləmək imkanı əldə edəcək, bununla yanaşı, sistem tələbə və müəllimlərin ümumi hərəkətlərini monitorinq və analiz etməyə şərait yaradacaq. Bundan əlavə, tələbələrə məlumatlar elektron poçt vasitəsilə ötürülməyəcək, tələbə sistemə daxil olduqda artıq öz elan lövhəsində ona olan mesaj və bildirişləri rahatlıqla görə biləcək.

“Blackboard Collaborate” isə həm universitetin daxilində, həm də başqa universitetlərlə əməkdaşlığı asanlaşdırmağa kömək edəcək. Məsələn, bununla hər hansı ikili diplom proqramını həyata keçirən və “Blackboard Collaborate” istifadə edən universitetlə tədrisi birləşdirmək mümkündür. Beləliklə, tələbələr rahatlıqla BDU-da və ya dünyanın hər hansı bir universitetində kurslar (kreditlər) götürməklə ikili diplom əldə edə bilərlər.

Hazırda BDU beynəlxalq səviyyəli universitet olmaq üçün səylərini artırır. Bu proqram vasitəsilə dünyanın nüfuzlu universitetləri ilə əlaqələrin qurulması ilə bərabər, xarici tələbələrin burada rahat təhsil almasına imkan yaranacaq. Əlavə olaraq, “Blackboard” sistemi BDU-nun rəqabətə davamlılığının artırılmasında böyük rol oynayacaqdır. BDU Azərbaycanda bu proqramı tətbiq edəcək ikinci universitetdir və sistem tələbə-müəllim münasibətlərinin ən üst səviyyədə, şəffaf şəkildə aparılmasına şərait yaradacaq.

Tətbiqin bu il sentyabrın 15-dən müəllim və tələbələr üçün tam istifadəsi nəzərdə tutulub. Yaxın zamanda admin təlimləri yekunlaşacaq və ilk test mərhələsi keçiriləcək. Test mərhələsi uğurla başa çatsa, Universitetin bütün datası proqrama daxil ediləcək. Bundan sonra ilk 100 nəfərlik qrupla müəllimlərin təlimlərinə başlanılacaq və bu şəkildə 100-200 nəfərlik qruplarla davam etdiriləcək.

Hazırda admin heyəti üçün aktiv təlimlər keçirilir. Admin heyəti dataları proqrama daxil edən şəxslərdir. Data deyərkən tələbə və müəllimlərin, kursların məlumatları nəzərdə tutulur. Hazırda tələbə informasiya sistemindən dataları çıxararaq “Blackboard”a inteqrasiya edilməsi üçün dataların hazırlanması prosesi həyata keçirilir. Administrativ heyətin təlimlərini “Blackboard” sistemi reallaşdırır.

***Sistem həmçinin tələbələrin qiymətini avtomatik olaraq hesablaya biləcək***

Ancaq dil baryerinə görə, müəllimlərin təlimlərini ADA universiteti Azərbaycan dilində keçirəcək. Proqram hazırda türk, ingilis və rus dillərində istifadə seçimləri verir. Gələn ilə artıq proqramın Azərbaycan dilinə uyğunlaşdırılması planlaşdırılır. Həmçinin müəllimlərin yanaşmasını öyrənmək üçün sentyabr və dekabr aylarında bu barədə sorğu keçirilməsi nəzərdə tutulub. Qeyd etmək lazımdır ki, ilk 100 nəfərlik qrup xüsusi meyarlara uyğun olaraq innovasiyalara açıq olan müəllimlərdən təşkil olunmuşdur. Daha sonra qrupdan 20 nəfər seçilərək onlara “Blackboard”ın beynəlxalq sertifikatı təqdim ediləcək. Bu müəllimlər beynəlxalq sertifikatlı təlimçilər olacaqları üçün gələcəkdə Azərbaycanda və ya dünya səviyyəsində təlimçi kimi çıxış etmək imkanı qazanacaqlar.

***Şəbnəm Səfərova***
*“Blackboard” müəllim-tələbə məlumat mübadilə sisteminin tətbiqi üzrə layihənin rəhbəri, Beynəlxalq əlaqələr şöbəsinin baş mütəxəssisi*

## "Heydər Əliyev - müstəqil Azərbaycanın qurucusudur" mövzusunda elmi seminar keçirilib

***Tarix fakültəsində “15 iyun – Milli Qurtuluş günü”nə həsr olunmuş "Heydər Əliyev – Müstəqil Azərbaycanın qurucusudur" mövzusunda elmi seminar keçirilib.*** İyunun 14-də keçirilən seminarda iştirakçıları salamlayan Tarix fakültəsinin dekan vəzifəsini icra edən İbrahim Zeynalov “15 iyun – Milli Qurtuluş günü” və onun müstəqil Azərbaycanın tarixində xüsusi yeri və rolu haqqında məlumat verib.

Elmi seminarda Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Cavid Osmanov "Heydər Əliyev – Müstəqil Azərbaycanın qurucusudur" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi bildirib ki, bəşər tarixində liderlərin böyüklüyü bir tərəfdən yaşadığı dövrdə gördüyü işlərin, yaratdıqlarının əhəmiyyəti ilə ölçülürsə, digər tərəfdən onların fəaliyyətinin gələcəyin axarına təsiri, əks-sədaları ilə müəyyənləşir. Dərin fəlsəfəyə əsaslanan, daim zamanın nəbzini tutmağı, hadisələrə müdrik qiymət verməyi, siyasi po-tensialını çevik dəyərləndirməyi bacaran şəxsiyyətlər cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olur, təmsil etdikləri xalqları zamanın sərt fırtınalarından, çətin sınaqlarından üzüağ çıxarır, milli xilaskara çevrilirlər. Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə vətəninə, xalqına bağlı olan dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev çağdaş tariximizdə əbədiləşmiş, respublikamıza rəhbərliyinin bütün dövrlərində vətən və xalq qarşısında misilsiz xidmətlər, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi nümunəsi göstərmişdir. Bir qərinədən də çox zaman kəsiyində Azərbaycana rəhbərlik etmiş ulu öndər Heydər Əliyev təkcə bu dövrdə deyil, bütün həyatı boyu xalqımızın rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanmışdır.

# Professor Şahlar Əsgərov - 80

***Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, Bakı Dövlət Universitetinin professoru, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Əməkdar elm xadimi, “Şöhrət” ordenli, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Şahlar Əsgərovun 80 yaşı tamam olub.***

***Şahlar Qaçay oğlu Əsgərov 15 iyun 1941-ci ildə Kəlbəcər rayonunda anadan olmuşdur. 1958-1963-cü illərdə Bakı Dövlət Universitetinin Fizika fakültəsində təhsil almış, bilik və bacarıqları nəzərə alınaraq təyinatla Universitetdə saxlanılmışdır.*** 1964-1967-ci illərdə Universitetin əyani aspirantı kimi Leninqrad Sabit Cərəyan İnstitutunda görkəmli alim prof. L.A.Senanın rəhbərliyi ilə fiziki elektronika sahəsində tədqiqatlar aparmışdır. Alimin bu istiqamətdə aldığı elmi nəticələr uzun illərdir ki, müntəzəm olaraq böyük elmi-texniki layihələrin həllində (ion mühərriklərində və termonüvə reaktorlarında) geniş şəkildə tətbiq olunur. Xüsusilə, ABŞ-ın kosmik tədqiqatlar üzrə baş idarəsi NASA və AİAA əməkdaşları kosmik gəmilər üçün ion mühərrikləri hazırlanmasında alimin tədqiqatlarından istifadə edirlər.

Ş.Əsgərov metal-yarımkeçirici kontaktları üçün qeyri-bircins model təklif etmiş və bu istiqamətdə onun aldığı nəticələr çoxsaylı elmi məqalələrdə və ixtiralarda əks olunmuş, monoqrafik ədəbiyyatda, xülasə və məqalələrdə yer almışdır.



BDU-da elmi kadr hazırlığında fəal şəkildə iştirak edən alimin rəhbərliyi ilə indiyə qədər 20-dən çox dissertasiya işi müdafiə edilmişdir. Şahlar Əsgərov müxtəlif illərdə BDU-da müəllim, dosent, dekan müavini, beynəlxalq əlaqələr üzrə prorektor vəzifələrində çalışmışdır. Hazırda BDU-nun professorudur.

Professor Şahlar Əsgərov son 20 ildə həm də milli-mənəvi dəyərlər, dövlət və dövlətçilik, yeni düşüncə tərzi, təhsilin fəlsəfəsi kimi mühüm problemlərlə məşğul olur. Alimin bu problemlərlə bağlı yazdığı kitab və məqalələr ölkəmizdə və xaricdə çap edilmiş, elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır.

Şahlar Əsgərov ölkəmizin ictimai həyatında da fəal şəkildə iştirak edir. O, hər zaman Ulu Öndər Heydər Əliyevin siyasətinə sadiqliyi ilə seçilmişdir. Şahlar Əsgərov Ulu Öndər Heydər Əliyevi Azərbaycanı bəlalardan xilas etmək üçün Bakıya dəvət edən məşhur 91-lərdən və Yeni Azərbaycan Partiyasının yaradıcılarından biridir. O, uzun müddət YAP İdarə Heyətinin və Siyasi Şurasının üzvü olmuşdur. Partiyanın 2021-ci ildə keçirilən qurultayında Şahlar Əsgərov YAP Veteranlar Şurasının üzvü seçilmişdir. Şahlar Əsgərov 1995-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, 2000-2005-ci illərdə isə Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının sədri olmuşdur.

Professor Şahlar Əsgərovun əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, alim Əməkdar elm xadimi adına, “Şöhrət” ordeninə, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalına layiq görülmüşdür.

Görkəmli alim, ictimai xadim professor Şahlar Əsgərovu 80 illik yubileyi münasibətilə Bakı Dövlət Universitetinin çoxminli kollektivi adından təbrik edir, ona uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

***İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi***

# Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş tədbir keçirilib

***İyunun 1-də Bakı Dövlət Universitetində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş onlayn tədbir keçirilib.***

BDU-nun rektoru Elçin Babayev tədbirdə çıxış edərək, ölkəmizdə uşaqların dövlət səviyyəsində yüksək qayğı ilə əhatə olunduğu, onların əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün bütün zəruri şəraitin yaradıldığı, onların şəxsiyyət kimi formalaşmasının əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasətinin prioritet istiqamətlərini təşkil etdiyini bildirib. Qeyd edib ki, uşaqların sosial həyatında tolerantlıq, onların sülh və qarşılıqlı anlaşma ruhunda tərbiyəsi, sağlam həyat tərzinin yaradılması, hüquqlarının müdafiəsi, humanizm və demokratik təhsil kimi məsələlər ön plana çəkilmişdir.





Elçin Babayev qeyd edib ki, bu gün Ulu Öndər Heydər Əliyevin ideyalarını əməli fəaliyyəti ilə yaşadan Heydər Əliyev Fondu tərəfindən də uşaqlara qayğı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva hər il internat və uşaq evlərində tərbiyə alan, eləcə də qaçqın və məcburi köçkün olan uşaqlar üçün bayram şənliklərində iştirak edərək onları bir araya gətirir. Heydər Əliyev Fondu xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olan uşaqlara daim diqqət və qayğı ilə yanaşır.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva bu gün Azərbaycanda uşaqların mənəvi və əxlaqi, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi üçün həyata keçirilən genişmiqyaslı tədbirlər haqqında məlumat verib. Ölkəmizdə uşaqların layiqli vətəndaş kimi yetişmələri, uşaqlarla bağlı sosial problemlərin həlli, uşaq hüquqlarının etibarlı təminatının dövlətin diqqət mərkəzində olduğunu bildirib.

Daha sonra tədbirdə BDU-nun Psixologiya kafedrasının müəllimi Kamilə Kazımova, İnsan hüquqları və informasiya hüququ üzrə UNESCO kafedrasının müəllimi Aytac Qibləliyeva mövzu ilə bağlı çıxış ediblər. Tədbir bədii hissə ilə davam edib. BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin şagirdlərinin təqdimatında şeirlər səsləndirilib.

# BDU-da ADPU-nun 100 illik yubileyi qeyd edilib

***İyunun 16-da Bakı Dövlət Universitetində Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) 100 illik yubileyinə həsr olunmuş dəyirmi masa keçirilib.***

Dəyirmi masada BDU-nun rektoru Elçin Babayev çıxış edərək ADPU-nun zəngin tarixi keçmişə malik, Azərbaycanda pedaqoji kadrların hazırlanmasında və inkişafında böyük rol oynamış elm və təhsil müəssisəsi olduğunu bildirib. Rektor Elçin Babayev Ümummilli Lider Heydər Əliyevin bu müqəddəs elm və ali təhsil ocağının fəaliyyətini yüksək dəyərləndirdiyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən universitetə yüksək qiymət verildiyini qeyd edib. Bildirib ki, ADPU ölkəmizin təhsil tarixində xüsusi yer tutan, zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Yarandığı vaxtdan etibarən Universitet üzərinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirmiş, respublikamızla yanaşı, bir sıra digər ölkələr üçün də elmi-pedaqoji kadr hazırlanması işini müvəffəqiyyətlə həyata keçirmişdir. Azərbaycanın tanınmış ictimai, elm və mədəniyyət xadimləri arasında Universitetin çox sayda məzunları vardır. İxtisaslaşmış ali təhsil müəssisəsi kimi ADPU müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı naminə bu gün də uğurlu fəaliyyəti ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir. Bu xidmətlərinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 17 aprel tarixli Sərəncamı əsasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyi geniş miqyasda qeyd olunur.





Rektor Elçin Babayev çıxışında da BDU ilə ADPU arasında elm və təhsil sahəsində uzun illərdən bəri formalaşmış sıx əməkdaşlıq əlaqələrini xüsusi vurğulayıb.

***ADPU-nun rektoru Cəfər Cəfərov çıxışında ADPU-nun 100 illik yubileyi münasibətilə BDU-da belə tədbirin təşkil olunmasına görə təşkilatçılara təşəkkür edib, ADPU-nun zəngin tarixindən, Azərbaycanda elm və təhsilin inkişafında rolundan, yüksəkixtisaslı müəllim kadrlarının hazırlanmasından və ADPU-nun məşhur məzunlarından bəhs edib.*** Rektor Cəfər Cəfərov hazırda Universitetdə görülən işlər, mübadilə proqramları, yeniliklər, strateji inkişaf planı, ali məktəbin tədris, təlim-tərbiyə, elmi tədqiqat, beynəlxalq əlaqələri istiqamətindəki fəaliyyəti, aparılan islahatlar və ali təhsil müəssisəsinin inkişaf mərhələlərindən danışıb. Universitetin respublikamızın ali təhsil ocaqları ilə yanaşı xarici ölkələr üçün elmi-pedaqoji mütəxəssis hazırlığı sahəsində mühüm rolu, elmi-tədqiqat layihələri və elmi-tədqiqat laboratoriyaları barədə məlumat verib. BDU ilə ADPU arasında sıx əməkdaşlıq əlaqələrinin olduğunu, bu əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində birgə əməkdaşlığın davam etdiriləcəyini vurğulayıb.

Daha sonra BDU-nun Sosiologiya kafedrasının professoru İzzət Rüstəmov, ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı Fərrux Rüstəmov, BDU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov çıxış ediblər. Çıxış edənlər ADPU-nun yaranma tarixi, fəaliyyəti və inkişafı haqqında, son illər ADPU-da təhsilin və tədrisin keyfiyyətinin yüksəldilməsi, tələbələrin biliyinin obyektiv qiymətləndirilməsi, Universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi, təhsilin idarə edilməsində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahələrində böyük uğurlar qazandığını vurğulayıblar.

# Yaponiya səfiri Nippon Fondunun kitab hədiyyəsini BDU-ya təqdim edib

***İyunun 3-də Yaponiyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vada Cuniçi Bakı Dövlət Universitetində olub, Yaponiya Nippon Fondunun hədiyyəsi olan 69 adda kitabı BDU-nun Elmi Kitabxanasına hədiyyə edib.***

Əvvəlcə BDU-nun rektoru Elçin Babayev Yaponiyanın ölkəmizdəki səfiri ilə görüşüb, tərəflər əməkdaşlıq perspektivlərini müzakirə ediblər. Görüşdə rektor Elçin Babayev Azərbaycan və Yaponiya arasında dostluq əlaqələrindən, BDU, xüsusilə də Şərqşünaslıq fakültəsi ilə səfirlik arasında olan əməkdaşlıq münasibətləri haqqında söz açıb, Yaponiyanın elm və təhsil müəssisələri ilə qarşılıqlı əlaqələrin qurulması, birgə elmi-tədqiqat işlərinin aparılması, Yaponiya universitetləri ilə ikili diplom proqramları, tələbə mübadiləsi və s. istiqamətlərdə əməkdaşlığın qurulması və mövcud əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.



*Səfir Vada Cuniçi BDU ilə Yaponiya səfirliyi və ölkəsinin universitetləri arasında əlaqələrin inkişaf etdirilməsi, təcrübə mübadiləsi və s. sahəsində əməkdaşlığa xüsusi diqqət göstərdiklərini qeyd edib.* BDU-da yapon dili və mədəniyyətinin tədris olunmasından məmnunluğunu bildirib. Qeyd edib ki, 2022-ci ildə Yaponiya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü geniş qeyd olunacaq və bu tədbirlər çərçivəsində yapon dili və mədəniyyətinin tədris olunduğu BDU-da bir sıra tədbirlərin keçirilməsi, birgə layihələrin həyata keçirilməsi planlaşdırılır.

Sonra BDU-nun Elmi Kitabxanasında Yaponiya Nippon Fondunun hədiyyə etdiyi kitabların təqdimat mərasimi keçirilib. Tədbirdə BDU-nun rektoru Elçin Babayev və səfir Vada Cuniçi çıxış ediblər. Sonra tədbirdə yapon dili, ədəbiyyatı, mədəniyyəti, tarixi, elmi, iqtisadiyyatından və s. bəhs edən kitablar Elmi Kitabxanaya təqdim olunub.

Təqdimat mərasimindən sonra səfir BDU-nun Elmi Kitabxanasının Nadir kitablar fondunda mühafizə olunan qədim, nadir nəşrlərlə, o cümlədən Yaponiya barədə kitablarla tanış olub.

# "Əl-Cəzirə" Media İnstitutunun nümayəndə heyəti BDU-da







***İyunun 23-də "Əl-Cəzirə" Media İnstitutunun nümayəndə heyəti Bakı Dövlət Universitetində olub.***

Görüşdə BDU-nun rektoru Elçin Babayev, Elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov, Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov, Şərqşünaslıq fakültəsinin professor-müəllim heyəti, "Əl-Cəzirə" Media İnstitutunun nümayəndə heyəti və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin əməkdaşları iştirak edib.

Qonaqlar Universitetin BDU TV studiyasının və Elmi kitabxananın fəaliyyəti ilə tanış olublar.

BDU-nun rektoru Elçin Babayev qonaqları salamlayaraq Azərbaycanın iqtisadi, siyasi, hərbi baxımdan regionda ən güclü dövlət olması və ölkəmizdə hal-hazırda həyata keçirilən quruculuq işləri barədə onlara məlumat verib. Rektor beynəlxalq aləmdə də ölkəmizin nüfuzunun günbəgün çoxaldığını, Azərbaycanın imicinə zərbə vurmaq istəyən düşmən qüvvələrin səylərinə baxmayaraq, ölkəmizin beynəlxalq institut və təşkilatların reytinq cədvəllərində yüksək pillələrdə yer aldığını qeyd edib.

Bundan əlavə rektor Elçin Babayev BDU-nun hər il dünyanın müxtəlif ali təhsil ocaqları ilə tələbə-müəllim mübadiləsinin gerçəkləşdirdiyinə diqqət çəkib.

Daha sonra "Əl-Cəzirə" Media İnstitutunun media meneceri Montaser Mara İnstitutun formalaşması, onun televiziya məkanında yeri və rolu, bugünkü vəziyyəti, yenilikləri ilə bağlı iştirakçılara məlumat verib. Birgə layihə və proqramlardan bəhs edib, əməkdaşlığın gələcək perspektivləri barədə fikirlərini bölüşüb.

BDU haqqında videoçarxın nümayişindən sonra Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kedrası müdiri vəzifəsini icra edən Vüqar Qaradağlı, kafedranın professoru Aida Qasımova və müəllimi Kəmalə Musayeva ərəbşünaslıq üzrə tədrisə və elmi araşdırmalara dair təqdimatla çıxış ediblər.

# BDU ilə ATGTİ əlaqələri genişləndirilir

***Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev tərkibində 100 ali və orta ixtisas təhsili müəssisəsinin tələbə gənclər təşkilatını birləşdirən, Cənubi Qafqazın ən böyük tələbə təşkilatı olan Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) sədri Pərviz Mirələmli, İttifaqın üzv təşkilatlar və tələbə klubları ilə iş sektorunun rəhbəri, "Erasmus Tələbə Şəbəkəsi-Azərbaycan" İctimai Birliyinin sədri Orduxan Qəhrəmanzadə ilə görüşüb.***





İyunun 9-da keçirilən görüşdə rektor E.Babayev 44 günlük Vətən müharibəsində informasiya cəbhəsində tələbə gənclərin xüsusi fəallıq göstərdiyini qeyd edərək tələbələrin vətənpərvərlik ruhunda yetişməsində tələbə gənclər təşkilatlarının da əhəmiyyətli rol oynadığını vurğulayıb. E.Babayev BDU-da Tələbə Gənclər Təşkilatının, eləcə də digər tələbə təşkilatlarının Universitetin ictimai həyatında yaxından iştirakı üçün yaradılmış şəraitdən bəhs edib. Görüşdə tələbələrin sosial fəaliyyətinin strategiyasında dəyişikliklər, tələbə-gənclər təşkilatları və tələbə klublarının fəaliyyətlərinin gücləndirilməsi, tələbələrlə əlaqələrin möhkəmləndirilməsi, gənclərin potensialının artırılması, beynəlxalq əməkdaşlığın və ölkə daxilindəki digər qurumlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində addımlar atılmasının vacibliyi vurğulanıb. Bunun üçün ölkənin ən böyük universitet tələbə gənclər təşkilatı – BDU TGT-nin təcrübəsi və imkanlarından istifadə olunması, təcrübəsinin digər ali məktəblərdə də tətbiq olunması qeyd olunub.

BDU-nun rektoru Elçin Babayev tələbələrin özünüinkişafı və səmərəli sosial fəaliyyətinin təşkili üçün yaradılan struktur bölmələri haqqında söz açıb, ali məktəblər arasında ilk dəfə BDU-da yaradılan Humanitar məsələlər və gənclər siyasəti şöbəsi, Tələbə Elmi Yaradıcılıq Mərkəzi, Psixoloji Yardım Sektorunun tələbələrin inkişafına verdiyi töhfələrdən bəhs edib .

ATGTİ sədri Pərviz Mirələmli görüş zamanı ölkədə gənclər hərəkatında tələbə gənclər təşkilatlarının fəaliyyəti haqqında söz açıb. BDU TGT-nin aktiv fəaliyyət göstərdiyini, ATGTİ-nin fəaliyyətində yaxından iştirak etdiyini bildirib.

ATGT-nin ali məktəblərdə təhsilin inkişafına kömək göstərmək, tələbələrin maraqlarını təmsil və müdafiə etmək, respublikanın ictimai-siyasi, mədəni, sosial-iqtisadi həyatında tələbə gənclərin fəal iştirakının təmin edilməsi istiqamətində həyata keçirilən layihələrində BDU TGT-nin fəal iştirakını vurğulayıb.

Sonda gənclər arasında mobillik və sosial ünsiyyətin genişləndirilməsi sahəsində birgə əməkdaşlıq, layihələrin həyata keçirilməsi, qrant proqramlarında birgə iştirak sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

# PAŞA Bank ilə BDU arasında əməkdaşlığa dair memorandum imzalanıb

***PAŞA Bank və Bakı Dövlət Universiteti arasında əməkdaşlığa dair memorandum imzalanıb. Müqaviləni PAŞA Bankın baş icraçı direktoru və İdarə heyətinin sədri Taleh Kazımov və BDU-nun rektoru Elçin Babayev imzalayıb.***



Memorandumda PAŞA Bank və BDU arasında müasir təhsil (elm) proqramlarının həyata keçirilməsi sahəsində birgə əməkdaşlığın perspektivli sahələrinin inkişaf etdirilməsi, biznes proseslərində təhsil (elm) və informasiya texnologiyalarının, innovasiyaların tətbiqi, təhsil və bank sahələrində innovasiya fəaliyyətinin birgə həyata keçirilməsi, müasir texnologiyaların və elmi inkişafın istifadəsi və inkişafında qarşılıqlı əlaqələndirmə, təhsil və bank xidmətləri sahəsində birgə seminar, treninq, konfrans və digər təhsil tədbirlərinin təşkili və həyata keçirilməsi, PAŞA Bankda BDU tələbələri üçün staj keçirilməsi və s. nəzərdə tutulur.

*İmzalanma mərasimdə çıxış edən BDU-nun rekroru Elçin Babayev PAŞA Bankın yaradılmasının 14-cü ili münasibətilə qonaqları təbrik edərək, BDU və PAŞA Bank arasında səmərəli əməkdaşlığın genişlənməsindən məmnunluğunu ifadə edib.* BDU ilə PAŞA Bank arasında əməkdaşlığın perspektivləri haqqında söhbət açıb. PAŞA Bankın baş icraçı direktoru və İdarə Heyətinin sədri Taleh Kazımov çıxışında bildirib ki, təmsil etdiyi qurum bir tərəfdaş kimi işgüzar fəaliyyətə böyük dəstək verir. PAŞA Bankın əsas hədəflərindən danışan T.Kazımov bankın gənclərin peşəkar kadr kimi yetişməsinə daim dəstək olduğunu və BDU ilə əməkdaşlığın bu istiqamətdə mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

# BDU-da Elmi Şuranın növbəti iclası keçirilib

***İyunun 9-da BDU Elmi Şurasının növbəti onlayn iclası keçirilib. İclasda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 iyun tarixli 158 nömrəli Qərarının icrası ilə əlaqədar BDU-da 2020/2021-ci tədris ilində yekun dövlət attestasiyasının keçirilməsi haqqında müvafiq qərar qəbul olunub.***

İclas cari məsələlərin müzakirəsi ilə davam edib. İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) təşəbbüsü və BDU-nun təşkilatçılığı ilə 2021-ci il 26-29 iyul tarixlərində BDU-da keçiriləcək gənc tədqiqatçılar üçün tərs mühəndislik (reverse engineering) və proqramlaşdırma üzrə təlimlər haqqında müzakirə aparılıb.

# BDU-nun rektoru şəhid məzun Şamil Nəcəfovun diplomunu ailəsinə təqdim edib









***Bakı Dövlət Universiteti Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsini və adını uca tutur, onların yaxınlarına, doğmalarına, ailə üzvlərinə diqqət və qayğı göstərir, şəhid ailələri və qazilərlə vaxtaşırı görüşlər keçirir.***

İyunun 10-da BDU-nun rektoru Elçin Babayev və Universitetin əməkdaşları Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu, Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalmış Şamil Nəcəfovun ailəsini ziyarət edib. Elçin Babayev BDU kollektivinin Şamilin xatirəsini daim əziz tutduğunu vurğulayıb, onun Vətən uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını bildirib. Sonra Şəhidin ali təhsil haqqında diplomunu anasına təqdim edib.



Şəhidin valideynləri Şamil haqqında xatirələrini bölüşüb, onun Vətənə layiq övlad kimi böyütdükləri üçün fəxr etdiklərini bildiriblər.

Daha sonra rektor Elçin Babayev və Universitet əməkdaşları şəhid Şamil Nəcəfovun məzarını ziyarət ediblər.

Qeyd edək ki, Vətən Müharibəsinin ilk günlərində düşmənlə döyüşə atılan Şamil Nəcəfov 2020-ci ilin oktyabr ayının 1-də Murov istiqamətindəki döyüşlərdə qəhrəmancasına şəhid olub.

# Şəhid məzun Ataməli Musaoğlunun ailəsi ziyarət olunub

***Bakı Dövlət Universiteti Vətən Müharibəsi dövründə şəhid olan tələbə və məzunlarının xatirəsini daim əziz tutur, şəhid ailələri və qazilərlə mütəmadi görüşləri davam edir.***

İyunun 30-da BDU-nun bir qrup əməkdaşı Vətən Müharibəsi şəhidi, Sosial elmlər və psixologiya fakültəsinin məzunu Ataməli Musaoğlunun ailəsini ziyarət edib. BDU və Missiya TV internet televiziyasının "Bakı Dövlət Universitetinin tarix yazan qəhrəman şəhid məzunları" layihəsi çərçivəsində keçirilən ziyarətdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin dekanı Hikmət Əlizadə, dekan müavini İranə Məmmədli, Tələbə Həmkarlar İttifaqı Komitəsinin fakültə üzrə sədr müavini İbrahimxəlil Məmmədov və fakültənin fəal tələbələri iştirak ediblər. Görüşdə çıxış edənlər Ataməli Musaoğlunun Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını bildiriblər. Təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Ataməli həm müəllimlərinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün örnək olacağı qeyd olunub. Şəhid Ataməli Musaoğlunun anası diqqət və



qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib və məhz dövlətimizin başçısının apardığı uğurlu siyasətin, ordu quruculuğunun və islahatların nəticəsində torpaqlarımızın düşmən tapdağından azad edildiyini vurğulayıb. Bu savaşda Vətən torpağı uğrunda rəşadətlə döyüşərək şəhid olan əsgər anası kimi fəxr etdiyini deyib.

Qeyd edək ki, Ataməli Musaoğlu 2012 - 2016-ci illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsində təhsil alıb. Psixoloq kimi fəaliyyət göstərən Ataməli Musaoğlu 2020-ci ildə könüllü olaraq ordu sıralarına qoşulub və 16 oktyabr tarixində Ağdərə rayonu istiqamətində gedən döyüşlərdə yaralı dostunu xilas edərkən düşmən snayperinin açdığı atəş nəticəsində şəhidlik zirvəsinə ucalıb.

# BDU kollektivi şəhid Vüqar Məmmədovun ailəsini ziyarət edib

***Bakı Dövlət Universiteti Vətən Müharibəsi dövründə şəhid olan tələbə və məzunlarının xatirəsini daim əziz tutur, şəhid ailələri və qazilərlə vaxtaşırı görüşlər keçirir. İyunun 21-də BDU-nun bir qrup əməkdaşı Vətən Müharibəsi şəhidi, İlahiyyat fakültəsinin məzunu Vüqar İlqar oğlu Məmmədovun ailəsini ziyarət edib.*** BDU və Missiya TV internet televiziyasının "Bakı Dövlət Universitetinin tarix yazan qəhrəman şəhid məzunları" layihəsi çərçivəsində keçirilən ziyarətdə BDU-nun Şərqşünaslıq fakültəsinin dekan müavinləri Nigar İsmayılzadə, Şahin Yusifli, fakültənin müəllimi Dəmir Süleymanov və BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin üzvü Mirməhəmməd Hüseynov iştirak ediblər.

Görüşdə çıxış edənlər Vüqar Məmmədovun Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını bildiriblər. Təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Vüqar Məmmədov




həm müəllimlərinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün örnək olacağı qeyd olunub. Şəhid Vüqar Məmmədovun anası Əsmər Məmmədova diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib və məhz dövlətimizin başçısının apardığı uğurlu siyasətin, ordu quruculuğunun və islahatların nəticəsində torpaqlarımızın düşmən tapdağından azad edildiyini vurğulayıb. Bu savaşda Vətən torpağı uğrunda rəşadətlə döyüşərək şəhid olan əsgər anası kimi fəxr etdiyini deyib.

Qeyd edək ki, Vüqar Məmmədov 2011-2015-ci illərdə BDU-nun İlahiyyat fakültəsində təhsil alıb. 2016-cı ildə Aprel döyüşlərində iştirak edən Vüqar Məmmədov 2020-ci ildə könüllü olaraq ordu sıralarına qoşulub və 9 oktyabr tarixində Füzuli şəhər mərkəzinin azad edilməsi uğrunda gedən şiddətli döyüşlər zamanı düşmən snayperinin açdığı atəş nəticəsində şəhidlik zirvəsinə ucalıb.

# BDU tələbələri Zəfər Forumunda iştirak edib

***İyunun 16-da Bakı Konqres Mərkəzində Azərbaycan Respublikasının Gənclər Fondu və Türkiyə Gənclər Fondunun (TÜGVA) birgə təşkilatçılığı ilə Azərbaycan və Türkiyə gənclərinin "Zəfər Forumu" keçiriib. Forumda Bakı Dövlət Universitetində təhsil alan türkiyəli tələbələr də iştirak ediblər.***

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbəsi Erdem Cem Burak Azərbaycanda təhsil alan türk tələbələri adından çıxış edərək, iki ölkənin qardaşlıq münasibətlərinin tarixindən və Qarabağ zəfərinin sevincindən bəhs edib.

Forumda hər iki ölkənin gəncləri adından ikitərəfli münasibətlərin yüksək şəkildə inkişaf etdirilməsinə görə iki ölkənin dövlət başçılarına təşəkkür edilmiş, Azərbaycan-Türkiyə gəncləri tərəfindən Qələbənin şərtləndirdiyi yeni dövrün reallıqlarına uyğun olaraq bütün platformalarda perspektivlər və müasir çağırışlara cavab verən işlərin ortaya qoyulmasının vacibliyi qeyd olunub.

Sonda 44 günlük Vətən müharibəsinin qazi iştirakçıları ilə xatirə fotosu çəkilib.

# "EBSCOhost platformasında interaktiv axtarış" mövzusunda növbəti onlayn təlim-seminar keçirilib

***İyunun 24-də Elmi Kitabxana Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (AZ.KİK) çərçivəsində BDU-nun təbiət elmləri fakültələri və elmi-tədqiqat institutlarının professor-müəllim heyəti, tədqiqatçıları və tələbələri üçün "EBSCOhost platformasında interaktiv axtarış" mövzusunda növbəti onlayn təlim-seminar keçirib.***

BDU Elmi Kitabxanasının direktoru Nigar İsmayılova çıxış edərək Az.KİK-in yaranması, fəaliyyəti, üzvləri, beynəlxalq əlaqələri və gələcək planları barədə danışıb, beynəlxalq EİFL konsorsiumunun üzvü kimi elektron mənbələrə endirimli qiymətlərlə abunənin və elektron informasiyaya əlyetərliyin təmin olunması haqqında geniş məlumat təqdim edib.

Daha sonra təlim-seminarda EİFL.net-in yerli təmsilçiləri - EİFL konsorsiumu üzrə milli əlaqələndirici və EBSCO-nun Azərbaycan üzrə təmsilçisi Cəmilə Yusifova, Open Access və Lisenziyalaşdırma üzrə ölkə koordinatoru İltifat İbrahimov təqdimatla çıxış edərək, elmi araşdırmalar zamanı EBSCOhost platformasında interaktiv axtarış, elektron resurslardan, tammətnli məqalələrdən istifadə imkanları, beynəlxalq nəşriyyatlarda elmi məqalələrin nəşri üçün jurnal seçimi, Open Access jurnallarda məqalə nəşrinə endirimli qiymətlər haqqında ətraflı məlumat veriblər.

Sonda seminar iştirakçılarının sualları cavablandırılıb.

# Jurnalistila fakültəsinin dekanı idman jurnalistlərinə ustad dərsi keçib

***UEFA-nın media tərəfdaşı olan Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının (AIPS) üzvü və ölkəmizdəki rəsmi təmsilçisi - Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının (AİJA) Bakının da ev sahibliyi edəcəyi futbol üzrə Avropa çempionatı öncəsi idman jurnalistlərinin peşəkar inkişafına dəstək məqsədilə may və iyun aylarında keçirdiyi maarifləndirici marafona yekun vurulub.***

Jurnalistika fakültəsi ilə əməkdaşlıq çərçivəsində fakültənin dekanı, Əməkdar jurnalist Vüqar Əliyev "İctimaiyyətlə əlaqələrdə auditoriya ilə iş prinsipləri" mövzusunda iyunun 11-də onlayn ustad dərsi keçib.

AİJA-nın BDU-nun Jurnalistika fakültəsi və inSportPresslə birgə təşkil etdiyi, "Etopaz"ın baş sponsoru olduğu, İdman TV, Oxu.az, Estafet.az və Media.az-ın informasiya dəstəyi verdiyi onlayn dərsin moderatoru, AİJA-nın vitse-prezidenti Anar Şabanoğlu giriş sözündə jurnalistika peşəsinin çətinliyindən danışaraq bir neçə gün əvvəl şəhid olan həmkarlarımız Sirac Abışov və Məhərrəm İbrahimovun timsalında bütün şəhidlərimizə Allahdan rəhmət diləyib.

Sonra Vüqar Əliyev iştirakçılara "İctimaiyyətlə əlaqələrdə auditoriya ilə iş prinsipləri" mövzusunda ustad dərsi keçib, jurnalistikanın müasir problemlərinə dair sualları cavablandırıb.

# Təhsil Tələbə Krediti Fondu - Əsas məqamlar



- Təhsil Tələbə Krediti Fondunun nizamnamə kapitalı 80 milyon manat nəzərdə tutulub. Qanunvericilik çərçivəsində nizamnamə kapitalına əlavə vəsait cəlb oluna bilər.

- Tələbələr növbəti tədris ilindən etibarən tələbə krediti ala biləcəklər.

- Kreditlər veriləndə ilkin mərhələdə giriş balları nəzərə alınacaq. Yüksək nəticə göstərilməsi ilk şərt olacaq.

- Bu kredit kommersiya məqsədi daşımır. Hər hansı səbəbdən götürülən kredit geri qaytarıla bilmədikdə tələbəyə möhlət hüququ veriləcək.

- Kredit məbləği birbaşa tələbəyə deyil, ali təhsil aldığı müəssisəyə veriləcək.

- Kredit öz hesabına təhsil alan tələbələrə şamil olunacaq.

- Təhsil Tələbə Krediti Fondu tərəfindən verilən kreditlər birdəfəlik yox, hər tədris ili üzrə ödəniləcək.

- Təhsil Tələbə Krediti Fondu tərəfindən verilən kreditlər 2 qrupa bölünəcək. Birinci qrupa sosial həssas tələbələr daxildir. İkinci qrup isə standart kredit olacaq.

- Təhsil kreditində faiz dərəcəsi çox az olacaq.

- Tələbə təhsil kreditini 20 il müddətinə qaytara biləcək. Yəni, tələbə ali təhsil müəssisəsini bitirdikdən sonra 20 il ərzində həmin krediti hissə -hissə Fonda qaytara biləcək.

- Bu və ya digər səbəbdən tələbə hərbi xidmətdə olduğu, yaxud işləmədiyi müddətdə Fonda kredit vəsaitini geri qaytarmaq iqtidarında olmazsa, ona möhlət hüququ veriləcək.

- Yaxşı oxuyan tələbəyə güzəştlər olunacaq. Həm faiz dərəcələri, həm də vəsaitin geri qaytarılmasında müvafiq güzəştlər oluna bilər.

- Kreditin məbləğinin yuxarı həddi illik təhsil haqqından çox olmayacaq.

- Təhsil tələbə krediti əcnəbi tələbələrə şamil olunmayacaq.

- Təhsil Tələbə Krediti Fondu tərəfindən verilən kredit yalnız ölkə daxilində alınan ali təhsilə şamil olunacaq.

- Yüksək peşə təhsili alan tələbələrə də kredit veriləcək.

- Özəl ali təhsil müəssisələrində təhsil alan tələbələr də tələbə təhsil krediti ala biləcəklər.

# 5 iyun - Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günüdür

***Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 1972-ci il 05 iyun tarixdə Stokholm şəhərində keçirilən iclasında ətraf mühit məsələləri diqqət mərkəzində olmuşdur. Problemin kəskinliyini, ətraf mühitin mühafizəsi problemlərinə diqqət yönəldilməsinin vacibliyini nəzərə alan iştirakçılar tərəfindən 5 iyunun "Ümumdünya ətraf mühit günü" kimi qeyd olunmasına qərar verildi və növbəti ildən başlayaraq həmin gün bütün dünyada təntənəli şəkildə qeyd olunmağa başlandı.***

Həmin günün seçilməsi onunla əlaqədardır ki, 1972-ci il iyunun 5-də Stokholmda BMT-nin Ətraf mühitin mühafizəsi problemlərinə dair konfransı açılmış və burada BMT-nin Ətraf mühit haqqında Proqramı qəbul edilmişdi. Bu qərarda məqsəd ictimaiyyətin diqqətini ətraf mühiti qorumaq və yaxşılaşdırmaq sahəsində təxirəsalınmaz tədbirlərin keçirilməsinə yönəltməkdir. Hər il 5 iyun "Ümumdünya ətraf mühit günü" ərəfəsində ətraf mühitin qorunması, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması məqsədi ilə müxtəlif tədbirlər həyata keçirilir.



Respublikamızda 2010-cu il "Ekologiya İli" elan olunmuşdur.

Respublikamızda da ətraf mühitin mühafizəsi hər zaman təxirəsalınmaz tədbirlər sırasında olmuşdur. Ətraf mühitin mühafizəsi sahəsində respublikamızda kütləvi hərakatın banisi mərhum akademik Həsən Əliyev hələ 1976-cı ildə "Həyəcan təbili" əsərində yazmışdır: "İnsanı təbiət yaratmış və öz sərvətlərini səxavətlə onun istifadəsinə vermişdir. Altı yüz min ildən artıqdır ki, müasir insanla təbiət arasındakı münasibət müəyyən nisbətdə davam edir. Bəşəriyyət öz inkişafının yüksək pillələrinə ayaq qoyduqca, bu nisbət müəyyən mənada insanların xeyrinə dəyişir. Başqa sözlə desək, insanlar sayca artdıqca və öz əlində daha mükəmməl texniki vasitələr cəmləşdirdikcə təbiətdən çox mənfəət götürür, müqabilində isə ona az şey verir. İnsan təbiəti dəyişdirir, qırır, tökür, dağıdır, əvəzini qaytarmırsa, demək bu xeyrə dəyişmə əslində onun zərərinədir"

Müstəqillik dövrlərindən başlayaraq respublikamızda ətraf mühitin qorunması tədbirləri günü gündən gücləndirilmək... — Müstəqillik dövrlərindən başlayaraq respublikamızda ətraf mühitin qorunması tədbirləri günü gündən güclənməkdədir. Bu istiqamətdə onlarla sərəncam, fərman və digər qanvericilik aktları qəbul olunmuşdur. Ətraf mühitin qorunmasının ən yaxşı yollarından biri xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasıdır. Son 15 ilə yaxın dövr ərzində 10 milli park yaradılmaqla hal-hazırda xüsusi mühafizə olunan təbiət əraziləri respublikamızın ərazisinin 10%-nədək hissəsini əhatə etməkdədir. Həmçinin, alternativ (külək, günəş və s.) enerji mənbələrindən istifadənin genişlənməsi, işğaldan azad edilmiş ərazilərin yaşıl zona elan olunması və ağıllı kənd layihələrinin başlanması respublikamızın ətraf mühitə qayğı ilə yanaşmasının bariz göstəriciləridir.

Hər bir insan özünün fəaliyyəti prosesində bu və ya digər formada təbiətlə və ətraf mühitlə təmasda olur. Bu baxımdan hər kəs istər məişətdə, istərsə də istirahət zamanı ətraf mühitin qorunmasına qayğı ilə yanaşmalıdır. Ətraf mühiti qorumaq vəzifəsi ilk növbədə əmək fəaliyyəti nəticəsində təbiətdən istifadə edən və ətraf mühitə təsir edə bilən hər bir şəxsin üzərinə düşür.

***İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi***

## BDU-da Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə bağlı tədbir təşkil edilib

Ekologiya və torpaqşünaslıq fakültəsində 5 iyun-Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə bağlı onlayn tədbir keçirilib. Tədbirdə Ekologiya və torpaqşünaslıq fakültəsinin professor-müəllim heyəti, doktorantlar, magistrantlar iştirak edib.

Tədbirdə Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Nazim Şəmilov, Coğrafi ekologiya kafedrasının müdiri Akif Ağbabalı, Coğrafi ekologiya kafedrasının dosenti Tahir İbrahimov çıxış ediblər. Çıxışlarda ətraf mühitin mühafizəsi, xüsusi qorunan təbiət əraziləri və biosfer qoruqları haqqında məlumat verilib. Qeyd edilib ki, bu il Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününün "Ekosistemin bərpası" mövzusuna həsr edilib. Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

# BDU-nun əcnəbi tələbələri işğaldan azad olunmuş rayonlarda

*Bakı Dövlət Universitetində təhsil alan əcnəbi tələbələr işğaldan azad olunmuş Füzuli və Cəbrayıl rayonlarına səfər ediblər. Səfər Təhsil Nazirliyi və Müdafiə Nazirliyinin, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə həyata keçirilib. BDU-nun Xarici tələbələrlə iş şöbəsinin iştirakı ilə baş tutan səfərdən əvvəl tələbələr Şəhidlər Xiyabanını ziyarət ediblər.*





Səfərin məqsədi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, əcnəbi tələbələrə Ermənistanın işğalçılıq və barbarlıq siyasətinin ağır nəticələrinin göstərilməsi Azərbaycanın regionda sülh və əmin-amanlq bərqərar olması istiqamətində gördüyü işlər və təşəbbüslər barədə, əzəli torpaqlarımızın – Qarabağın tarixi, maddi-mədəni abidələri və s. haqqında məlumatlandırmaqdır.

Xarici tələbələrlə iş şöbəsi səfərdən öncə tələbələrə Qarabağın tarixi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib, bu mövzuda yaddaş vərəqəsi təqdim edib.

Səfər çərçivəsində tələbələr Füzuli rayonunda qədim məscid, qəzet redaksiyası, köhnə qəbiristanlıq, Cəbrayıl rayonunda Xudafərin körpüsü, su elektrik stansiyası, "Dostluq bulağı", "Qədim çinar", yay kinoteatrı ziyarət ediblər. Cəbrayıl rayonunda xidmət edən əsgər və zabitlərlə görüşüblər.

Səfər zamanı əcnəbi tələbələr Azərbaycan bayrağı qaldıraraq "Qarabağ Azərbaycandır!" şüarı səsləndiriblər. Qarabağın Azərbaycan üçün əhəmiyyətini, bölgənin tarixi və zəngin mədəni irsini dünya ictimaiyyətinə çatdırmaq məqsədilə "Nargis" jurnalının Qarabağ mədəniyyətinə və tarixinə həsr olunmuş "Karabakh is Azerbaijan" adlı xüsusi buraxılışı əcnəbi tələbələrə təqdim edilib.

Sonda əcnəbi tələbələr öz təəssüratlarını bölüşüb, xatirə şəkli çəkdiriblər.

# BDU aliminin elmi-praktik seminarı təşkil edilib

*İyunun 14-də "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin professoru Aida Qasımovanın "Nizami Gəncəvinin "Yeddi gözəl" əsərinin ərəb qaynaqları" adlı onlayn mühazirəsi əsasında Nizami Gəncəviyə həsr edilmiş elmi-praktik seminar təşkil edilib.*

Seminarda çıxış edən professor Aida Qasımova "Yeddi gözəl" əsərinin daxili quruluşu, kompozisiya xətti, poemanın bədii-estetik xüsusiyyətləri və ərəb dilində olan mənbələrdə əsər barədə olan məlumatları tədbir iştirakçıları ilə bölüşüb.

Sonda filologiya üzrə fəlsəfə doktoru, Elm şöbəsinin müdiri İradə Musayevanın moderatorluğu ilə keçirilən tədbirdə fəlsəfə elmləri doktoru Könül Bünyadzadə, filologiya elmləri doktoru, professor Rəhilə Qeybullayeva, filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy, filologiya elmləri doktoru, professor Sənan İbrahimov və şərqşünas alim, Bakı Dövlət Universitetinin İran filologiyası kafedrasının dosenti Əsmətxanım Məmmədova məruzə ilə bağlı çıxış ediblər.

# BDU-nun əməkdaşları beynəlxalq konfransda iştirak ediblər

*İyunun 2-də Bakı Dövlət Universitetinin əməkdaşları Türkiyənin Qazi Universitetində keçirilən II "International Light and Light Based Technologies" (İşıq və işıq əsaslı texnologiyalar) mövzusunda beynəlxalq elmi konfransda iştirak ediblər.*

Konfransda dünyanın 26 ölkəsindən olan universitetlərin əməkdaş və tələbələrinin məruzələri dinlənilib.

BDU-nun Fizika fakültəsinin professoru Rasim Məmmədov "Əlavə elektrik sahəsində Şotki diodlarında foto effekt", Nanoaraşdırmalar Mərkəzinin müdiri Mustafa Muradov "Nanomaterialların alınması və optik xassələrinin bəzi xüsusiyyətləri", mərkəzin əməkdaşları – Lalə Qəhramanlı "Müxtəlif texnoloji amillərin CdxZn1-xS nanohissəciklərinin optik xassələrinə təsiri", Sevinc Məmmədyarova "Ni/NiO nanozəncirlərinin strukturuna və optik xüsusiyyətlərinə maqnit sahəsinin təsiri", Kimya fakültəsinin əməkdaşı Ofeliya Balayeva "NiZnAl laylı ikili hidroksid/PVS kompozit matrisdə NixZn1-xS nanohissəciklərin idarə olunan sintezi" mövzularında çıxış ediblər.

# Fakültələrdə elmi seminarlar

## Şərqşünaslıq fakültəsi

***İyunun 4-də Şərqşünaslıq fakültəsində "Fars dilində omofonlar" mövzusunda elmi seminar keçirilib.*** Şərqşünaslıq fakültəsinin dekan müavini Nigar İsmayılzadə seminara başlayaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən 2021-ci ilin "Nizami ili" elan edilməsi ilə əlaqədar BDU-da silsilə tədbirlərin keçirilməsindən, tələbələr üçün ustad dərslərin təşkil edilməsindən, eyni zamanda fakültənin professor-müəllim heyətinin elmi fəaliyyətlərini işıqlandırmaq, apardıqları tədqiqat işlərin istiqamətini elmi ictimaiyyətin diqqətinə çatdırmaq məqsədilə elmi seminarların keçirilməsinin əhəmiyyətindən danışıb.

Məruzəçi İran filologiyası kafedrasının dosenti Əsmətxanım Məmmədova "Fars dilində omofonlar" mövzusunda məruzəsində dünya dillərində omofonların fonetika daxilində öyrənilməsi, ərəb qrafikalı əlifbadan istifadə olunan fars əlifbasının xüsusiyyətindən asılı olaraq omofonların və omoqrafların zənginliyini, fars dilinin fonetikası, qrafikası, orfoepiyası və orfoqrafiyası sahəsində apardığı tədqiqatlarda əldə etdiyi elmi nəticələrdən bəhs edib.

Tədbir professor-müəllim heyətinin mövzu ətrafında müzakirəsi ilə davam edib.

## Geologiya fakültəsi

***İyunun 4-də Geologiya fakültəsində "Aralıq dənizi Qafqaz-Zaqros seqmentinin geoloji inkşafının Mezozoy mərhələsi" mövzusunda onlayn elmi seminar keçirilib.*** Elmi seminarda fakültənin professor-müəllim heyəti, tələbə, magistrant və doktorantlar iştirak edib. Fakültənin dekanı Məhluqə Məmmədova elmi seminarı giriş sözü ilə açaraq tədbir iştirakçılarını salamlayıb, seminarın işinə uğurlar arzulayıb.

Daha sonra Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya və Geofizika İnstitutunun Petrologiya şöbəsinin müdiri, professor Musa Məmmədov "Aralıq dənizi Qafqaz-Zaqros seqmentinin geoloji inkşafının Mezozoy mərhələsi" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə mərkəzi seqmentin Paleozoy bünövrəsinin pneplenləşmiş qalxmadan ibarət olması və onun Pangeya materikinin tərkibinə daxil olması əsaslandırılıb.

Seminarda iştirak edən professorlar Nazim İmamverdiyev, Bahadır Qələndərov, dosentlər Əvəz Məmmədov, Nurəddin Abbasov və b. çıxış edərək məruzə ilə bağlı fikirlərini bildiriblər. Elmi seminar alimlərin mövzu ətrafında fikir mübadiləsi ilə başa çatıb.

## Mexanika-riyaziyyat fakültəsi

***İyunun 7-də Mexanika-riyaziyyat fakültəsində "Konstruksiya elementlərinin və cisimlərin yükdaşıma qabiliyyətlərinə ətraf təsirinin statika və dinamika məsələləri" mövzusunda onlayn elmi seminar keçirilib.***

Seminarda Nəzəri mexanika və bütöv mühit mexanikası kafedrasının dosenti Yusif Sevdimaliyev məruzə edib. Məruzədə tədqiqat obyekti olaraq üçlaylı sferanın qeyri-ideal kontakt şərtlərində dinamika məsələsinə baxılıb və sərbəst rəqslərin tezliyin kontakt şərtlərindən asılılığının analizi aparılıb. Məsələnin riyazi modelinin qurulması uyğun sərhəd və laylararası kontakt sərtlərində hissə-hissə bircins cisimlər üçün elastikiyyət nəzəriyyəsinin və riyazi fizika məsələsi olaraq ayrılıqda hər bir oblast üçün modelləşdirilməsinə gətirilib. Məsələ disret-analitik metodla həll edilib.

Seminar BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov, professorlar Əli Əhmədov, Nizaməddin İsgəndərov, Ziyatxan Əliyev, Hamlet Quliyev, Yaşar Mehrəliyev və başqalarının sual və çıxışları ilə davam etdirilib.

## Jurnalistika fakültəsi

***İyunun 21-də Jurnalistika fakültəsində növbəti onlayn elmi seminarı keçirilib. Multimedia və elektron kommunikasiya kafedrasının doktorantı Mətanət Hüseynova "Televiziyanın maarifləndirmə prosesində cəmiyyətə əsas təsir formaları" adlı məruzə ilə çıxış edib.***

Doktorant Mətanət Hüseynova çıxışında kütləvi informasiya vasitələri içərisində televiziyanın qavrayış bütövlüyünə nail olunmasında daha güclü təsir imkanlarına malik olmasından bəhs edib. O, televiziyanın cəmiyyətin maarifləndirilməsi prosesində ənənəvi KİV ilə müqayisədə təsir imkanları baxımından bir addım öndə olduğuna diqqət çəkib.

Seminarda iştirak edən doktorantın elmi rəhbəri, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri professor Allahverdi Məmmədli, kafedranın professoru Qulu Məhərrəmli, dosent Sevinc Məmmədova, müəllimlərdən Əli Hacıyev, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının professoru Nəsir Əhmədli çıxış edərək mövzu ilə bağlı rəylərini bildiriblər.

## Coğrafiya fakültəsi

***İyunun 24-də Coğrafiya fakültəsində "Böyük Qafqazın şimal-şərq yamacı landşaft komponentlərinin Soğrafi İnformasiya Sistemi əsasında təhlili" mövzusunda elmi seminar keçirilib.***

Seminarda çıxış edən Fiziki coğrafiya kafedrasının müəllimi Rəşad Sədullayev Soğrafi İnformasiya Sistemi (CİS) əsasında landşaft komponentlərinin təhlili və kosmik şəkillərin deşifrələnməsi əsasında yeni məlumat və nəticələrin əldə edilməsi haqqında ətraflı məlumat verib. Landşaftların hidroloji elementlərinin deşifrələnməsi, lito-geoloji, torpaq və bitki örtüyünün CİS vasitəsilə tədqiqinin elmi-nəzəri və praktiki əhəmiyyəti haqqında təkliflərini bildirib.

# BDU-da Şuşa Bəyannaməsinin imzalanmasına həsr olunmuş tədbir keçirilib

***İyunun 16-da Tarix fakültəsi, "Gənc istedadlar" liseyi və Heydər Əliyev muzeyinin birgə təşkilatçılığı ilə Şuşa Bəyannaməsinin imzalanması və 15 iyun - Milli Qurtuluş Gününə hərs olunmuş onlayn tədbir keçirilib.***



Tədbirdə BDU-nun Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşunaslıq və metodika kafedrasının müdiri Anar İsgəndərov, Tarix fakültəsinin professoru İbrahim Zaynalov, "Gənc istedadlar" liseyinin tarix müəllimi, Tarix fakültəsinin professoru Nuru Məmmədov, BDU-nun Heydər Əliyev müzeyinin müdiri Zəkiyyə Kərimova, "Gənc istedadlar" liseyinin direktoru Arif Bağırov və liseyin sağirdləri iştirak ediblər.

Çıxış edənlər Şüşa Bəyannaməsinin Türkiyə və Azərbaycan arasında müttəfiqlik sənədi olduğunu və bu bəyannamənin özünün çoxsaylı bəndləri ilə iki qardaş ölkə arasında bütün istiqamətlərdə əlaqələri özündə əks etdirdiyini bildiriblər. Sonra 15 iyun - Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən bəhs olunub. 1993-cü il 15 İyun tarixində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqın təkidi, istək və tələbi ilə yenidən hakimiyyətə gəlməsi, Ulu Öndərin özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi ilə dövlətçiliyimizin məhv olması təhlükəsinin qarşısının alınması istiqamətindəki addımlarından, xalqımızı Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdirməsindən söz açılıb.

# Rektor ICESCO-nun təşkil etdiyi beynəlxalq simpoziumda iştirak edib

***BDU-nun rektoru Elçin Babayev 2021-ci il 10 iyun tarixində keçirilən "Kosmik sənaye və islam dünyası: əhəmiyyəti, çağırışlar və fürsətlər" (First International Symposium on Space Science, Importance, Challenges, Emerging Opportunities in Space Industry and Islamic World) adlı kosmik elmlər üzrə I Beynəlxalq simpoziumda iştirak edib.***

Simpoziumda Mərakeş, Pakistan, Azərbaycan, Səudiyyə Ərəbistanı və ICESCO-ya üzv digər ölkələrin universitetləri, İslam Dünyası Universitetləri Federasiyasının üzvü olan ali məktəblərin nümayəndələri, elm xadimləri, gənc sahibkarlar, tədqiqatçı alimlər, mütəxəssislər, astronavtlar, kosmik agentlik və komissiyaların nümayəndələri iştirak ediblər.

Onlayn və oflayn formatda keçirilən simpozium İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) tərəfindən ABŞ-ın Space Foundation və İslam Dünyası Universitetləri Federasiyası (FUIW) Baş Katibliyinin dəstəyi ilə təşkil olunub.

BDU-nun rektoru Elçin Babayev simpoziumda ekspert qismində çıxış edərək Azərbaycanda gənc elmi tədqiqatçıların kosmos və əlaqəli elmlər sahəsində tədqiqatları, eləcə də onların təcrübi biliklərinin artırılması istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib. Azərbaycan Milli Elmlər Akademiyası Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının fəaliyyətinə diqqət çəkən rektor Elçin Babayev "Azərkosmos" ASC-nin bu sahədə həyata keçirdiyi yeniliklərdən bəhs edib. Dünyada kosmik proqramlar və kosmik texnologiyalardan istifadənin təhsildə, elmdə tətbiqindən, mövcud kosmik texnologiya ilə əlaqəli fəaliyyətlərdən danışıb.

Simpoziumun gündəminə kosmik ekosistemin əhəmiyyəti, mövcud problem və fürsətlər, qlobal kosmik ekosistemin idarə olunması, kosmik kəşfiyyata cəlb olunma, kosmos sahəsindəki elmi yeniliklər və bu sahə ilə bağlı digər önəmli məsələlər qoyulub.

# BDU THİK beynəlxalq konfransda təmsil olunub

***İyunun 8-də Beynəlxalq İnsan Hüquqları Komissiyası (IHRC) və Pakistanda fəaliyyət göstərən Sülh naminə Dünya Gənclər Sammitinin (WYSP) birgə təşkilatçılığı ilə Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr olunan beynəlxalq konfrans keçirilib.*** Konfransda Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı komitəsinin sədri Hacıbaba Mustafayev iştirak edib. H.Mustafayev çıxışında Azərbaycanda ətraf mühitin qorunması ilə bağlı ciddi tədbirlərin görülduyü haqqında məlumat verib. Regionda yaranan əsas eko-




loji problemlərdən birinin də Ermənistan işğalı zamanı Qarabağın təbii resurslarına vurulan zərər olduğunu qeyd edən H.Mustafayev torpaqlarımızın işğaldan azad edilməsindən sonra bu ərazilərdə də bərpa işlərinə başlanıldığını vurğulayıb.

Qeyd edək ki, konfransda Monqolustanın sabiq Prezidenti Tsaxia Elbeqdorj, Ekvadorun ilk qadın Prezidenti Rosalia Arteaga, Mavrikinin sabiq Prezidenti Amina Qurib-Fakim, Pakistanlı Millət Vəkili Rəhman Malik, Maldiv adalarının sabiq xarici işlər naziri Dünya Mamun, Banqladeş Gənclər Parlamenti sədri Sarker Tanvir Əhməd və digər rəsmilər, ekspertlər və media nümayəndələri iştirak ediblər.

# "Gənc İstedadlar" liseyinin şagirdi beynəlxalq olimpiadada iştirak edib



***Bakı Dövlət Universitetinin nəzdində "Gənc istedadlar" liseyinin X sinif şagirdi Rəfsan Həbibullayev Latviyada keçirilən Avropa Fizika Olimpiadasında (EuPhO 2021) uğurla çıxış edərək həvəsləndirici mükafat qazanıb.***

Qeyd edək ki, Rəfsan Həbibullayev Təhsil Nazirliyi tərəfindən yaradılan Beynəlxalq olimpiadalara hazırlıq mərkəzinin dinləyicisidir.

Bu münasibətlə şagirdimizi təbrik edir, müvəffəqiyyətlər arzu edirik!

# "Universitetlərimizi tanıyaq" layihəsinin növbəti görüşü BDU-da keçirilib

**İyunun 4-də Biləsuvar Rayon Təhsil Şöbəsinin "Universitetlərimizi tanıyaq" layihəsi çərçivəsində növbəti görüşü Bakı Dövlət Universitetində keçirilib.**

Layihənin məqsədi abituriyentlərin ali təhsil müəssisələri seçiminə düzgün istiqamət vermək, gələcək tələbələrin universitet haqqında ilkin təəssüratını formalaşdırmaq, müəssisənin tədris və elmi fəaliyyəti, təhsil imkanları və təhsil haqları ilə tələbələri tanış etmək, həmçinin mövcud infrastruktur haqqında məlumat verməkdir.

BDU-nun tanıtım çarxının nümayişindən sonra görüşdə çıxış edənlər - BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin şöbə müdiri Mahir Pirquliyev, Tədrisin təşkili və idarə olunması Mərkəzinin şöbə müdiri Fərhad Aydınlı, Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov BDU-nun tarixi, elmi-tədqiqat fəaliyyəti və beynəlxalq reytinqlərdə mövqeyi, Universitetdə tədris prosesi, ixtisaslar, təqaüdlər, tələbələr üçün yaradılan şərait, həmçinin Universitetin ictimai-sosial həyatının müxtəlif istiqamətləri barədə abituriyentlərə məlumat veriblər.

Görüşdə həmçinin BDU-nun xarici universitetlərlə qarşılıqlı əlaqələrindən, ikili diplom proqramlarının tətbiqindən, eyni zamanda tələbə mübadilə proqramlarından bəhs olunub.

# "Cümhuriyyətimizin 103 illik tarixi" mövzusunda intellektual yarışma

***Bakı Dövlət Universitetində "Cümhuriyyətimizin 103 illik tarixi" mövzusunda fərdi intellektual yarışma keçirilib.***

Yarış Tələbə Gənclər Təşkilatının İntellektual Oyunlar Klubu və "BDU Könüllüləri"nin birgə təşkilatçılığı universitetin könüllüləri arasında təşkil edilib.

İştirakçılara Cümhuriyyətin tarixi, təhsil sahəsində gördüyü işlər, maarifçilik, ordu quruculuğu, beynəlxalq əlaqələrin qurulması və Bakı Dövlət Universitetinin yaranması ilə bağlı suallar verilib.

Qaliblərə sertifikatlar təqdim olunub.

# Milli-mənəvi dəyərlər, ənənə və müasirlik mövzusunda tədbir keçirilib

***İyunun 2-də Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Sosial elmlər və psixologiya fakültəsində "Milli-mənəvi dəyərlərimiz, ənənə və müasirlik" adlı tədbir keçirilib.*** Fakültənin dekan müavini İranə Məmmədli və dosent Zeynəddin Şabanov çıxış edərək qədim və köklü milli-mənəvi dəyərlər sistemінə malik olan Azərbaycan xalqının bu dəyərləri sədaqətlə qorumağından, müasir qloballaşma dövründə milli-mənəvi dəyərlərimizin qorunmasının əhəmiyyətindən bəhs ediblər. Daha sonra fakültənin tələbələri - Vaqif Müzəffərli, Nigar Hüseynzadə və Riad Mirzəyev çıxış edərək Ümummilli Lider Heydər Əliyevin hər bir sahədə olduğu kimi, dini ibadətgahların və abidələrin bərpası, onların yenidən inşası istiqamətində gördüyü işlər barədə məlumat verib. Çıxışlarda milli-mənəvi dəyərlərimizin gələcək nəsillərə çatdırılmasının vacibliyi qeyd edilib. Tədbir diskussiya formatında davam edib.

## Onlayn esse müsabiqəsinin nəticələri açıqlandı







***Bakı Dövlət Universitetinin tələbə və magistrantları arasında keçirilən “Heydər Əliyev - müstəqil Azərbaycanın xilaskarı və qurucusu” onlayn esse müsabiqəsinin nəticələri açıqlanıb.***

Komissiya üzvlərinin qərarına əsasən birinci yerə Filologiya fakültəsinin IV kurs tələbəsi Nigar Əliyeva, ikinci yerə Jurnalistika fakültəsinin I kurs tələbəsi Nəzrin Gəncəliyeva, üçüncü yerə isə Sosial elmlər və psixologiya fakültəsinin II kurs tələbəsi Aytac Rizvanova layiq görülüb.

Qaliblər müvafiq olaraq, I yer 300 manat, II yer 250 manat, III yer 200 manat pul mükafatı və diploma təltif ediləcək, esselər BDU-nun rəsmi saytı, sosial media hesablarında dərc olunacaq.

# BDU tələbələri “Tələbə baharı” tələbə-yaradıcılıq festivalının qalibi olub

***İyunun 17-si Bakı Dövlət Universitetinin tələbələri Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin 2007-ci ildən etibarən hər il ali təhsil müəssisələrinin tələbələri arasında keçirdiyi “Tələbə baharı” Ümumrespublika tələbə yaradıcılıq festivalında qalib olublar.***



Bu il təşkil edilən “Tələbə baharı” XV Ümumrespublika tələbə yaradıcılıq festivalı “Nizami Gəncəvi ili”nə həsr olunub.

Festivalın seçimlərində 15 ali təhsil müəssisəsindən 100 nəfər tələbə iştirak edib. *BDU tələbələrinin rəqs ansamblı müsabiqədə milli rəqslər nominasiyası üzrə I, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin III kurs tələbəsi Firudun Yusifov və Sosial elmlər və psixologiya fakültəsinin II kurs magistrantı Püstə Şükürova milli rəqslər (duet) nominasiyası üzrə I, Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin IV kurs tələbəsi Səbinə Cəfərova bəstəkar mahnılarının ifası nominasiya üzrə III yerə layiq görülüb.*

Finala çıxmış qaliblərin iştirakı ilə Nizami Gəncəvinin “Xəmsə” poeması əsasında ayrı-ayrı məkanlarda çəkilişlərin aparılması şərti ilə musiqili tamaşa hazırlanaraq onlayn formatda yayımlanacaqdır.

Qalibləri təbrik edir, uğurlar arzulayırıq.

## Tələbəmiz Avrasiya Patent Universiadasının qalibi oldu

**Aprel ayında Avrasiya Patent Təşkilatının 25 illiyinə həsr olunmuş “Gələcəyə baxış” Avrasiya Patent Universiadası keçirilib.** Müsabiqədə Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin müxtəlif universitetlərini təmsil edən tələbələrin təqdim etdikləri 120 elmi-tədqiqat layihəsi universiadanın münsiflər heyəti tərəfindən qiymətləndirilib.

*Universiadada Bakı Dövlət Universitetinin fizika fakultəsinin dosenti Mətanət Mehrabovanın rəhbərliyi ilə BDU-nun Mexanika-riyaziyyat fakültəsinin 1-ci kurs tələbəsi Zərifə Əhmədzadə III yerə layiq görülüb.*

2021-si id iyunun 17-də tarixində Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində keçirilmiş tədbirdə müsabiqədə qalib gələn layihə iştirakçıları və layihə rəhbərlərinə mükafatlar təqdim edilib. Qeyd edək ki, Avrasiya Patent Təşkilatı 1994-cü ildə yaradılıb. Ölkəmiz 1994-cü il sentyabrın 9-da Avrasiya Patent Konvensiyasını imzalayıb, 1995-ci ildə isə konvensiyanın ratifikasiya edilməsi ilə təşkilatın tamhüquqlu üzvü olub.

## BDU tələbələri beynəlxalq gənclər müsabiqəsində 3-cü yeri tutub

***Bakı Dövlət Universitetinin tələbələri Rusiya Federasiyası Baş Prokurorluğu tərəfindən "Korrupsiyaya qarşı birlikdə" şüarı ilə keçirilən Beynəlxalq gənclər müsabiqəsində iştirak edib. Müsabiqəyə Avstraliya, Azərbaycan, Belarus, Bosniya Hersoqavina, Hindistan, Qazaxıstan, Kanada, Moldova, Myanmar, Nepal, Cənubi Afrika Respublikası (CAR), Yaponiya və Rusiyadan olan 5000 namizəd qatılıb.***




BDU-nun Tələbə Gənclər Təşkilatı və Tələbə Həmkarlar İttifaqı Komitəsinin fəal üzvləri Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin I kurs magistrantı Fərid Qurbanov və Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin IV kurs tələbəsi Rəhim Aslanovun birgə hazırladığı videoçarx "Ən yaxşı videoçarx" nominasiyası üzrə III yerə layiq görülüb.

Müsabiqə təşkilatçıları tərəfindən komandaya üçüncülük medalı, plaket və Rusiya Baş Prokurorluğunun suveniri təqdim olunub.

Qalibləri təbrik edirik!

# BDU-nun əməkdaşı esse müsabiqəsinin qalibi olub



Şərqşünaslıq fakültəsinin dekan müavini Şahin Yusifli Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən “Nizami Gəncəvi yaradıcılığı: mənəvi dəyərlər və vətənpərvərlik” mövzusunda keçirilən onlayn esse müsabiqəsində III yerə layiq görülüb.

Gənclər və İdman Nazirliyində qaliblərin mükafatlandırılması mərasimində Şahin Yusifli diplom və pul mükafatı ilə təltif edilib.

## Filologiya fakültəsinin tələbəsi “Mən Azərbaycanlıyam” bilik yarışmasının qalibi olub



Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Telli İmanlı “Mən Azərbaycanlıyam” bilik yarışmasının 10-cu mövsümünün qalibi olub.

2020-ci ilin mayın 30-da “Ölkəmizi tanıyaq, tanıdaq” şüarı ilə yarışmaya qoşulan Telli İmanlı həmin ilin 30 iyun tarixində baş tutan yarışda həftənin qalibi olub. 2021-ci il mayın 19-da mübarizəni davam etdirən tələbəmiz həftənin qalibləri arasında keçirilən ilin final mərhələsinin seçim turuna qatılıb. Finala yüksələn Telli İmanlı bütün rəqiblərindən üstün bilik nümayiş etdirərək yarışmada birinci yerə layiq görülüb.

Tələbəmizi parlaq qələbə qazanması münasibətilə ürəkdən təbrik edir, fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

## Şərqşünaslıq fakültəsinin tələbəsi beynəlxalq yarışda qalib gəlib

Şərqşünaslıq fakültəsinin Koreya üzrə regionşünaslıq ixtisasının III kurs tələbəsi Zərbəyim Həsənova Koreyanın Sungkyunkwan Universitetinin təşkilatçılığı ilə keçirilən onlayn yazı müsabiqəsində qalib gəlib.

Hər il Koreya, Çin, Mərkəzi Asiya və Avropa regionları üzrə keçirilən yarışda Z.Həsənova “İnsanlararası münasibət (“??”)” mövzusu ilə Avropa regionunda ölkəmizi təmsil edib. Yarışın nəticələriinə əsasən Z.Həsənova Avropa regionu üzrə II yerə layiq görülüb. Regionlar üzrə yer tutan iştirakçılar avqust ayında dünya üzrə final yarışında iştirak edəcəklər.

# "BDU könüllüləri"nin iclası keçirilib

***İyunun 25-də “BDU könüllüləri”nin idarə heyəti və fəal könüllülərin iştirakı ilə iclas keçirilib.***

***Görüşdə “BDU könüllüləri”nin koordinatorları Nərmin Heydərova və Tural Cəfərov çıxış edərək Universitetdə könüllülər hərəkatı, könüllülərin fəaliyyətindən, BDU-da könüllülər üçün yaradılan şəraitdən bəhs ediblər.***

Görüşdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Daha sonra könüllülər hərəkatının genişləndirilməsi, könüllülük fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb, gələcəkdə planlaşdırılan layihələr haqqında məlumat verilib.

# “Gənc istedadlar” liseyində “Son zəng” çalınıb

***İyunun 14-də “Gənc istedadlar” liseyində son zəng tədbiri keçirilib. Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.***

Tədbirdə çıxış edən BDU-nun Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov məzunları və onların valideynlərini təbrik edib. Liseyin fəaliyyətindən söz açan prorektor, bu illər ərzində qazanılan nailiyyətlərdən danışıb, lisey şagirdlərinin respublika və beynəlxalq olimpiadalarda, müxtəlif intellekt, bilik və idman yarışlarında qazandıqları uğurlardan bəhs edib. Prorektor Hüseyn Məmmədov gənc nəsildə təhsilə, elmə marağın daha da artırılması və geniş dünyagörüşünün formalaşdırılmasının ən əsas məsələlərdən olduğunu bildirib.




Sonra liseyin direktoru Arif Bağırov çıxış edərək qeyd edib ki, 2020-2021-ci tədris ilində liseyi 50 nəfər məzun bitirir. Onlardan 12 nəfəri medala, 9 nəfəri isə fərqlənmə attestatına namizəddir. Direktor çıxışında bildirib ki, “Sabahın alimləri” müsabiqəsində şagirdlərin 3 layihəsi I, 5 layihə II, 3 layihə III, 1 layihə isə xüsusi mükafata layiq görülüb. XI sinif şagirdi Xanlar Abbasov Con Fon Neyman adına Macarıstan beynəlxalq riyaziyyat olimpiadasında həvəsləndirici mükafata, respublika fənn oplimpiadasında isə informatika fənni üzrə bürünc medala layiq görülüb.



Liseyin direktor müavini Məleykə Bayramova və valideynlər adından çıxış edən Ramiz Əliquliyev şagirdlərin respublika və beynəlxalq olimpiadalarda və müsabiqələrdə qazandığı uğurlardan ətraflı bəhs edərək onları təbrik edib, məzunları doğma Bakı Dövlət Universitetinin auditoriyalarında görmək arzusu ilə gələcək həyatlarında onlara uğurlar arzu ediblər.





Mərasim şagirdlərin hazırladıqları “Son zəng” ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

# “Bakı Universiteti” qəzeti - 92




***Milli mətbuatımızın banisi H.B.Zərdabi qəzeti həyatın “aynası” kimi qiymətləndirirdi. Həqiqətən də hər bir qəzet ünvanlandığı auditoriyanı maarifləndirmək, məlumatlandırmaq kimi ciddi funksiyaları yerinə yetirməklə əvəzolunmaz xidmət göstərmiş və göstərməkdədir.*** İkinci müstəqillik dövrümüzədək Azərbaycan Dövlət Universiteti adlanan bügünkü müqəddəs Bakı Dövlət Universitetinin də aynası hesab olunan bir qəzetimizin indi 92 yaşı tamam olur. Nəşrə “Student” adı ilə başlayan bu qəzet sonralar “Lenin tərbiyəsi uğrunda”, bizim günlərimizdə isə “Bakı Universiteti” adı altında nəşr edilir. Bakı Dövlət Universiteti Azərbaycanda ilk ali təhsil ocağı olduğu kimi, “Bakı Universiteti” qəzeti də universitet məkanında nəşr olunan ilk mətbuat orqanıdır. Bu qəzet həm də ölkəmizdə ilk sahə qəzeti kimi qiymətləndirilə bilər.

Nəşrə başladığı ilk nömrələrindən “Bakı Universiteti” qəzeti xalqımızın milli qürur mənbəyi olan Bakı Dövlət Universitetinin fəaliyyətini, xüsusilə tələbə həyatını, təhsil sistemimizin inkişaf sürətini, kadr hazırlığı siyasətini və digər onlarca tematikanı işıqlandırmışdır. Hətta sovet dövlətinin sərt senzura qadağaları dövründə belə “Bakı Universiteti” milli və ictimai maraq prinsiplərindən, Universitetdə hazırlanan kadrların milli ruhda tərbiyəsinə diqqətdən çəkinməmişdir.

Tipoloji xarakterinə görə sahə mətbuatı olan bu qəzetə tarixən mətbuatı, jurnalistikanın fəaliyyət prinsiplərini həm nəzəri, həm də praktik cəhətdən mükəmməl bilən insanlar redaktorluq etmişlər. Onların sırasında Rəsul Rüstəmov, İsrafil Cahangirov, Yusif Yusifov, Şirməmməd Hüseynov, Seyfulla Əliyev, Nüsrət Bağırov, Aslan Aslanov, Ağamusa Zeynalov, Bayram Hüseynzadə kimi birbaşa Universitetimizə bağlı adamları xüsusi qeyd etməliyik.

***“Bakı Universiteti” qəzeti bu gün daha böyük bir missiyanı yerinə yetirir. Bu qəzet ulu öndərimiz Heydər Əliyevin “Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır” kimi böyük qiymətini öz fəaliyyətində daim rəhbər tutur.*** Təsadüfi deyil ki, bu qəzet ağır pandemiya şəraitində belə öz dövriliyini qoruyub saxladı. “Bakı Universiteti” 44 günlük Vətən Müharibəsi mövzusunu, qələbəmizin, Zəfər yolumuzun, Ali Baş Komandan İlham Əliyevin “Birinci əsgər” (Mir Şahin) fəaliyyətini ön plana çəkdi. Qəzet Universitet tələbələrinin və məzunlarımızın döyüş yolu, şəhidlik zirvəsinə yüksəlmiş müqəddəslərimizin örnək olan həyat yolu ilə bağlı tematikanı daim gündəmdə saxlayır və pandemiya ilində Universitetimizin onlayn fəaliyyət istiqamətləri onun aparıcı, prioritet mövzuları sırasındadır.

“Bakı Universiteti” qəzetinin ən maraqlı müəllif imzaları tələbələrimizə məxsusdur. Onların səmimi, cəsarətli, kövrək imzaları bu qəzetin daha maraqlı, daha məzmunlu olmasına xidmət edir. Uzun bir tarixi yolu şərəflə keçmiş “Bakı Universiteti” qəzetinin 92 yaşı mübarək olsun!

***Cahangir Məmmədli***
*Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, professor*

# Tələbələrimiz Zəfər Forumunda iştirak edib

***İyunun 16-da Bakı Konqres Mərkəzində Azərbaycan Respublikasının Gənclər Fondu və Türkiyə Gənclər Fondunun (TÜGVA) birgə təşkilatçılığı ilə Azərbaycan və Türkiyə gənclərinin “Zəfər Forumu” keçirilib. Forumda Bakı Dövlət Universitetində təhsil alan türkiyəli tələbələr də iştirak ediblər.***

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbəsi Erdem Cem Burak Azərbaycanda təhsil alan türk tələbələri adından çıxış edərək, iki ölkənin qardaşlıq münasibətlərinin tarixindən və Qarabağ zəfərinin sevincindən bəhs edib.

Forumda hər iki ölkənin gəncləri adından ikitərəfli münasibətlərin yüksək şəkildə inkişaf etdirilməsinə görə iki ölkənin dövlət başçılarına təşəkkür edilmiş, Azərbaycan-Türkiyə gəncləri tərəfindən Qələbənin şərtləndirdiyi yeni dövrün reallıqlarına uyğun olaraq bütün platformalarda perspektivlər və müasir çağırışlara cavab verən işlərin ortaya qoyulmasının vacibliyi qeyd olunub.

Sonda 44 günlük Vətən müharibəsinin qazi iştirakçıları ilə xatirə fotosu çəkilib.

# BDU-nun əməkdaşları Heydər Əliyev adına Neft Emalı Zavodunda

***Ekologiya və torpaqşünaslıq fakültəsinin Ekoloji kimya kafedrasının müdiri professor Sevinc Hacıyevanın rəhbərliyi ilə Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasının əməkdaşları Heydər Əliyev adına Neft Emalı Zavodunda tədqiqat aparır.*** Zavod ilə Bakı Dövlət Universiteti arasında bağlanılmış müqavilə üzrə BDU əməkdaşları elmi tədqiqat-ekoloji xidmət işlərini davam etdirir.

Elmi-tədqiqat zamanı zavodun bioloji təmizləmə qurğularına daxil olan və təmizlənərək Xəzər dənizinə axıdılan istehsalat sularının tərkibində qalan neft tullantılarının əsasını təşkil edən fenol tipli birləşmələrin, asili hissəciklərin, xloridlərin, zərərli sulfid birləşmələrinin quru qalıq, ümumi duzluluq, oksigenin kimyəvi sərfi (OKS) və oksigenin bioloji sərfi (OBS) müəyyənləşdirilir. İşin yerinə yetirilməsində əsas məqsəd zavodun istehsalat tullantı sularının ekoloji normalara uyğun olaraq təmizlənməsi və hər bir maddə üçün Yol Verilən Qatılıq Həddinə uyğun olmasının müəyyənləşdirilməsidir.

Bunun üçün nümunələr götürülərək analizlər aparılır. Zavodun laboratoriyalarında və BDU-da aparılan analizlər, zavodun fəaliyyətinin ekoloji standartlara uyğun olaraq təşkil olunmasında və ekoloji xidmət sahəsində yeni təkliflərin hazırlanmasında böyük rol oynayır.

# BDU-da Məzun Günü

***İyunun 29-da Bakı Dövlət Universitetində "Məzun günü" tədbiri keçirilib. Tədbir məhdud sayda məzunun iştirakı ilə açıq havada karantin rejiminin qaydalarına ciddi riayət olunmaqla təşkil olunub.***








***Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb. Azərbaycan Respublikasının Dövlət Bayrağını BDU-nun Tarix fakültəsinin məzunu, Vətən Müharibəsi iştirakçısı Nəzər Əlizadə və BDU-nun bayrağını Universitetin məzunu, dünya çempionu və 2 qat Avropa çempionu Rövşən Bayramov qaldırıblar. Dövlət Himnini C.Naxşıvanski adına Hərbi liseyin orkestri səsləndirib.***

BDU-nun rektoru Elçin Babayev tədbirdə çıxış edərək bu il BDU-dan məzun olan 5963 tələbənin hər birini təbrik edib. E.Babayev ölkəmizdə təhsilə göstərilən dövlət qayğısından, Bakı Dövlət Universitetinin əldə etdiyi nailiyyətlərdən danışıb. 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etməklə Böyük Qələbənin qazanılmasında gənclərin rolundan bəhs edib, Vətən Müharibəsində şəhid olan qəhrəmanlarımızın, o cümlədən BDU-nun 18 şəhid məzununun daima xatirəsinin əziz tutulduğunu bildirib. Gənclərə öz tövsiyələrini verən rektor bildirib ki, builki məzunlar xoşbəxtdirlər ki, onlar Zəfər ilinin məzunlarıdırlar. Həmişə öz dövlətləri, xalqı və qəhrəmanları ilə qürur duymalıdırlar və əminik ki, Vətənə layiqli övlad kimi fəaliyyət göstərəcəkdirlər.








Elçin Babayev çıxışında qeyd edib ki, 102 illik tarixi olan Bakı Dövlət Universiteti təkcə Azərbaycanda deyil, bütün Müsəlman Şərqində ilk dünyəvi ali təhsil ocağı kimi dünya elminə, mədəniyyətinə, siyasətinə təsir göstərmək qüdrətinə malik yüzlərlə tarixi şəxsiyyətlər yetişdirib. Siz məzunların da bacarıqlı bir mütəxəssis kimi ölkəmizin tərəqqisində, cəmiyyətin inkişafında mühüm rol oynayacağınıza, fəaliyyətinizdə dövlətçilik prinsiplərini əsas tutacağınıza inanıram. BDU-ya tələbə kimi qəbul olunduğunuz gündən bəri biz - müəllimləriniz biliklərinizin artırılması, potensialının üzə çıxarılması, dünyagörüşünüzün inkişaf etdirməsi yönündə əlindən gələni etməyə çalışıb. Siz gənclərin cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi, mədəni həyatında iştirakının təmin edilməsi günümüzün vacib məsələlərindən biridir. Biz çox sevinirik ki, siz Bakı Dövlət Universitetinin missiyasını anlayır, ona dəyər verirsiniz.




Daha sonra tədbirdə Azərbaycan Respublikasının təhsil nazirinin müavini Firudin Qurbanov, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, Milli Məclisin üzvü Elnur Allahverdiyev çıxış edərək məzunları təbrik ediblər.

BDU-nun professor-müəllim heyəti adından Milli Məclisin üzvü, BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov, Universitetin gənc müəllimləri adından Geologiya fakültəsinin müəllimi Ələkbər Mirzəyev, məzunlar adından Hüquq fakültəsindən məzun olan Şərqiyyə Məmmədova, məzun valideynləri adından Filologiya fakültəsinin məzunu Yaqut Abdiyevanın atası Qabil Abdiyev çıxış edərək məzunlara uğurlu yol arzulayıblar.

Tədbirə BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı musiqi nömrələri, rəqs və kompozisiyalar rəng qatıb. "Qarabağ Azərbaycandır" qum kompozisiyası (Lalə Hüseynzadənin təqdimatında), "Qarabağ" və "Azərbaycan naxışları" kompozisiyaları və s. rəqs və musiqi nömrələri təqdim olunub. Xalq artisti Samir Cəfərov, əməkdar artist Nuriyyə Hüseynova, xalq artisti Gülyanaq Məmmədova, Çilənay Hüseynova, Aygün Məmmədova məzunlara öz musiqi töhfələrini veriblər.

Sonra universitet üzrə ən yüksək Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) olan məzunlar - Bakalavr səviyyəsi üzrə Hüquq fakültəsinin tələbəsi Əliyeva Nəzrin Əmir qızı (ÜOMG=99,26), magistratura səviyyəsi üzrə Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi Tağıyeva Turana Mahmud qızı (ÜOMG = 99,98) BDU-nun rektoru ilə birgə BDU-nun xatirə lövhəsinə öz adlarını həkk ediblər. Fakültələr üzrə bakalavr və magistratura səviyyələri üzrə ən yüksək ÜOMG göstəricisi əldə etmiş məzunlara hədiyyələr təqdim edilmişdir.

Tədbir BDU-nun himninin səsləndirilməsi ilə başa çatmışdır.




**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Həmid Vəliyev, Allahverdi Məmmədli, Nəsir Əhmədli

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.06.2021

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.